# DÜŞÜNƏN İNSAN

№ 8 - Aprel 2012 - 2 AZN




# ATEİZMİN SONU İNANC ƏSRİNİN BAŞLANĞICI

- Həyatın kosmosdan gəlməsi mümkun deyil
- Azad olmaq düşüncəsiz olmaq demək deyil
- Müasirlik adı altında gizlənən batil təlim: Reinkarnasiya
- Hər insan vəhylə hərəkət edir
- Həşəratlardakı mükəmməl aerodinamika

## 3 FİLM HƏDİYYƏ

HƏYATN GERÇƏK MƏNŞƏYİ

QURAN ELMƏ YOL GÖSTƏRİR

QURAN MÖCÜZƏLƏRİ

# ELMDƏ ƏN BÖYÜK SAXTAKARLIQ




Ernst Hekkel tərəfindən irəli sürülən Rekapitulyasiya nəzəriyyəsinə əsasən, canlı rüşeymləri inkişaf prosesi ərzində "əcdadlarının" keçirdiyi təkamül prosesini təkrarlayır. Məsələn, insan rüşeyminin ana bətnindəki inkişafı ərzində rüşeym əvvəlcə balıq, sonra sürünən xüsusiyyətləri göstərir, ən sonda insana çevrildiyi irəli sürülür.

Halbuki, sonrakı illərdə bu nəzəriyyənin tamamilə təxəyyül məhsulu olan bir ssenari olduğu məlum olmuşdur. Məsələnin daha da maraqlı cəhəti isə Ernst Hekkelin, əslində, ortaya atdığı Rekapitulyasiya nəzəriyyəsini dəstəkləmək üçün rəsm saxtakarlıqları etməsidir. Hekkel balıq və insan rüşeymlərini bir-birinə bənzətmək üçün saxta rəsmlər çəkmişdir. Bu saxtakarlığın aşkar olunmasından sonra özünü müdafiə etmək üçün dediyi sözlər isə digər təkamülçülərin də buna bənzər saxtakarlıqlar etdiyini bildirməkdən ibarət idi.




*"Elm" jurnalı; 5 sentyabr 1997*

Məşhur "Science" jurnalında yayımlanan məqaləyə əsasən, Hekkel təkcə orqanlar əlavə etmək və ya çıxarmaqla kifayətlənməmiş, eyni zamanda müxtəlif növləri bir-birlərinə bənzər göstərmək üçün ölçüləri ilə də oynamış, bəzən rüşeymləri həqiqi ölçülərindən on dəfə fərqli göstərmişdir. Nəticədə, Hekkelin rəsmlərinin biologiyadakı ən böyük saxtakarlıqlardan biri olduğu məlum olmuşdur.

DÜŞÜNƏN İNSAN - Aprel 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

## içindəkilər

*DÜŞÜNƏN İNSAN ; APREL 2012*


Heydər Əliyev İslam dini haqqında 3

Elmi-texnoloji xəbərlər 4

İslam dünyasında keçən ay 6

Eşitmə cihazlarından daha yüksək texnologiya: Ağcaqanad qulağı 12

Azad olmaq düşüncəsiz olmaq demək deyil 14

Bir ayə, Bir açıqlama 19

















Şərq-Qərb mətbəəsində çap olunmuşdur

# içindəkilər




Dinlərin təkamülü yalanı 42

Həşaratlardakı mükəmməl aerodinamika 50

Axirətdəki peşmançılıq 56

Fosillər təkamülü təkzib edir 63

Yarım kiloqram bal əldə etmək üçün 120.000 km yol qət edən arılar 64




















Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən - bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır".



**Heydər Əliyev**



# Elmi-Texnoloji xəbərlər

## İngiltərə dərsliklərində məcburi darvinist təhsil



The Christian Institute

**'New atheists' attacking schools, warns academic**

Qlazqo Universitetindən professor Robert Devis, Riçard Dokinz kimi ateistlərin Skot tədris planı üzərindəki təzyiqinə qarşı tədrisçiləri xəbərdar etmişdir.

İngiltərədə fəaliyyət göstərən "The Chirstian İnstitute" adlı qurumun internet saytındakı bir xəbərə əsasən, Qlazqo Universistetindən Robert Devis adlı tədris mütəxəssisi Riçard Dokinz kimi ateistlərin Şotlandiya məktəblərində digər fikirləri aradan qaldıraraq tədris planını birtərəfli təhsilə məcbur etdiklərini bildirmiş və tədrisçilərə ciddi xəbərdarlıq etmişdir.

Professor Robert Devis Şotlandiya tədris planının sözügedən ateist lobbinin təzyiqi altında olduğunu belə ifadə etmişdir:

"Ateizmdən başqa fikirləri aradan qaldırmağa çalışır və bu fikirlərin səhv və əsassız olduğunu, təhsil sistemində heç bir yerinin olmadığını deyirlər. Bu təqdirdə, yaradılış inancının tədris planına daxil edilmə haqqı alınır. Şübhəsiz ki, Şotlandiya tədris planı təzyiq altındadır. Bu insanların tədrisçilər üzərində güclü təsiri var və buna görə, mütləq ittiham olunmalıdırlar".

Məlum olduğu kimi, Cənab Adnan Oktar illərdən bəri dünyanın hər yerində - bütün məktəb və universitetlərdə darvinizmin rəsmi surətdə tədris edildiyini, məktəb idarə heyətinin, hətta dövlət məmurlarının buna səssiz qaldığını bildirir. Cənab Oktar istər yazdığı əsərlərdə, istərsə də yerli və xarici mediaya verdiyi müsahibələrində təkamülün dünyanın hər ölkəsində bir növ rəsmi ideologiyaya çevrildiyini dəfələrlə qeyd etmişdir. Bütün dünyada tələbələr heç bir elmi dəlillə dəstəklənmədiyinə və elmi cəhətdən tamamilə əsassız edildiyinə baxmayaraq, bütün dərsliklərdə təkamül nəzəriyyəsini oxuyurlar. Bir sözlə, bütün dünyada birtərəfli təhsil verilir, dərslərdə elmi dəlillərlə yaradılış həqiqətindən bəhs edilmir. Halbuki, təhsilin azad olması dərslərdə təkamüllə birlikdə yaradılışın da öyrədilməsini tələb edir.




Space — msnbc.com

Workplace lawsuit gets NASA tangled up in evolution debate

## Devid Kopec adlı elm adamı təkamülü inkar etdiyinə görə, NASA-dakı vəzifəsindən azad edildi

Devid Kopec adlı elm adamı kainatın üstün güc tərəfindən yaradıldığını, həyatın təkamüllə əmələ gəlməyəcək qədər mürəkkəb olduğunu söylədiyinə görə, NASA-dakı 15 illik vəzifəsindən azad edilmişdir.

Saturnu və çox sayda peykini kəşf edən qrupun rəhbəri olan Devid Kopec həmkarları ilə təkamülün əsassızlığı haqqındakı söhbətləri və bununla bağlı payladığı DVD-lərə görə ona ayrı-seçkilik edildiyini deyir.

Sietl Diskaveri İnstitutundakı Elm və Mədəniyyət Mərkəzinin köməkçi direktoru olan Con Uest: “Bu, bir prosesin tərkib hissəsidir. Darvinin fikirlərinə qarşı olan insanlara qarşı mübarizə aparılır və bunu uzun illərdən bəri görürük. Halbuki, hər kəsin inanc və söz azadlığı olmalıdır”, - deyir.

Bu vəziyyət Cənab Adnan Oktarın istər kitablarında, istərsə də söhbətlərində xüsusi diqqət çəkdiyi darvinist diktatorluğun dünya səviyyəsində təzyiqini və bu diktatura sisteminə qarşı çıxan insanların dərhal vəzifələrindən uzaqlaşdırıldıqlarını bir daha nəzərə çatdırır.

## Genetik mutasiya piylənməyə səbəb olur

Elm adamları müəyyən gendə baş verən mutasiyanın piylənməyə səbəb olduğunu aşkar ediblər.

Ankara BBC-nin verdiyi məlumata əsasən, Corctaun Universiteti Tibb Mərkəzində siçanlar üzərində keçirilən təcrübələr mutasiyaya məruz qalan beyinin iştaha hormonlarının dəyişikliyə reaksiya verməsini dayandırdığını, bununla beyinə “artıq yemək yeməmə” xəbərinin göndərilməsinin qarşısının alındığını göstərmişdir.

Elm adamları Beyin Mərkəzli Neytrofik Faktor (BDNF) adlandırılan genin mutasiyaya məruz qalması nəticəsində siçanların normadan 80% artıq yemək yediyini müəyyən etmişlər.

Yemək yedikdən sonra insulin və leptin kimi hormonların beyinə “artıq yemək yeməmə” xəbəri göndərdiyini bildirən elm adamları mutasiyaya məruz qalan siçanlarda hormonların göndərdiyi xəbərin beyinin doğru mərkəzinə çatdırılmaq üçün qana keçmədiyini aşkar etmişdir.

Tədqiqata rəhbərlik edən prof. Baoji Xu BDNF geni mutasiyaya məruz qaldıqda neyronların bir-birləri ilə əlaqə qura bilmədiyini, leptinlə insulin mesajlarının göndərilmədiyini, ona görə, iştahanın azalmadığını deyir.

“Nature Medicine” jurnalında dərc olunan tədqiqatın piylənmənin qarşısının alınmasında yeni cığır açacağı bildirilmişdir.



# İslam Dünyasında

## Ebo Allaha təşəkkür edib

Qalatasaraylı futbolçu Emmanuel Ebo qələbə ilə nəticələnən maçdan sonra müsahibə verib.

Qələbəyə görə, Allaha şükür etdiyini deyən ulduz: “Allaha şükür etmək istəyirəm. Bizə meydanda mübarizə aparmaq gücünü O verir. Bu gün mühüm qələbə qazandıq. Ən əsası da odur ki, oyunu qapımıza qol buraxmadan tamamladıq”, - deyib.

Formasının altından geyindiyi futbolkanın üstündə yazılmış “Allaha şükür” sözləri ilə diqqət çəkən Ebo: “Təbii ki, Allah təkcə mənim üçün deyil, hər kəs üçün vacib olmalıdır. Etdiyimiz hər şey, qazandığımız bütün uğurlar Ondan gəlir. Buna görə, Ona şükür etməliyik. Mən də Ona bağlı bir insan kimi evimdə daima dua edir, şükür edirəm. Komanda yoldaşlarımın və komandamızın uğur qazanması üçün dua edirəm”, - deyib.



## Fənərbağçanın keçmiş ulduzu Nikolas Anelka necə müsəlman olduğundan danışıb

Fənərbağçanın keçmiş ulduzu Nikolas Anelka, başqa adı ilə Bilal Əbdüssalam Ramazan aylarında oruc tutduğunu, oruclu halda matçlarda iştirak etdiyini söyləyib. Çelsi forması ilə İngiltərədə oynayan Anelka necə müsəlman olduğundan danışıb.

Fənərbağçanın keçmiş fransız oyunçusu Nikolas Anelka 2004-cü ilin may ayının son həftəsində Birləşmiş Ərəb Əmirliklərində dincələrkən müsəlman olub. Həmin tarixdə İngiltərə Premyer Liqası komandalarından Mançester Sitinin formasını geyinən Anelka Dubayda Əl-Vassal Məscidində bir müfti və iki imamın qarşısında kəlimeyi-şəhadət gətirərək İslamı seçib.

Anelka daha sonra Qurani-Kərimdən ayələr oxuyub və Ərəbistan yarımadasındakı məscidləri gəzərək ibadət edib. Adını dəyişdirib Bilal Əbdüssalam edən fransız futbolçunun Ərəbistan yarımadasındakı son dayanacağı Məkkə olub. Anelka Məkkə və Mədinəni ziyarət edib, ümrə ibadətini yerinə yetirib.



# Keçən Ay

Anelka getdiyi yerlərdə çox müsbət qarşılanıb və "Müsəlman Anelka" kimi məscidlərdə ərəblərlə fotoşəkillər çəkdirib. Anelkanın İslam dinini seçməsi ingilis və fransız mətbuatında böyük əks-səda doğurub. Fransız ulduz həmin tarixlərdə "France Football" jurnalına açıqlama verərək: "Müsəlman oldum", - deyib. "1999-cu ildən bəri İslama marağım var idi. Trapesdəki yoldaşlarımla səhərə qədər İslam haqqında müzakirə aparırdıq. Müsəlman oldum. Sanki beynim və gözüm yeni açıldı. İslam mənə tamamilə başqa həyat tərzi bəxş etdi və mən bu həyat tərzinin mənə uyğun olduğuna qərar verərək müsəlman oldum".

"Ramazan aylarında mütləq oruc tuturdum. Oruc tutmaq heç də çətin bir şey deyil, məşqlərə də, matça da oruclu halda çıxırdım. Çünki Ramazan ayına hörmətim var".

## İSVEÇDƏ 35 MİN NƏFƏRİN ADI MUHƏMMƏDDİR

İsveçdə son illərdə müsəlmanların sayının artması ilə müsəlman adları da artmağa başlayıb. Muhəmməd və Əli adları ölkədə ən çox istifadə edilən 100 addan biridir.

İsveç Statistika Bürosunun məlumatlarına əsasən, ölkədə 35 min 433 nəfərin adı Muhəmməddir (Muhammed, Mohammed, Mohamed). 3 min 363 nəfər də bu addan soyad kimi istifadə edir.



# Son sözü demək xəstəliyi

Ətrafınızdakı insanları bir neçə saatlıq müşahidə etsəniz, onların əksəriyyətinə hakim olan vacib bir xüsusiyyəti görə bilərsiniz:

## Son sözü demək xəstəliyi

- **Son sözü demək xəstəliyi niyə təhlükəlidir?**

- **Son sözü demək məntiqinə sahib olan insan hansı xüsusiyyətləri ilə tanına bilər?**

- **Möminlər Allahın izni ilə hansı gözəl əxlaq xüsusiyyətləri vasitəsilə bu xəstəlikdən qurtula bilərlər?**

İnsanlardakı son sözü demək xəstəliyini görmək üçün mütləq əhəmiyyətli mövzulardan danışmaq lazım deyil. Bəzən bir yeməyin hazırlanma qaydası, bəzən hər hansı televiziya verlişi, bəzən yaşanan gündəlik hadisələr, bəzən də oxunan adi qəzet xəbəri insanlardakı bu xəstəliyi ortaya çıxara bilər.

Əlbəttə ki, adi gündəlik söhbətlərdə belə bu rəftarı göstərən insan daha əhəmiyyətli və həyati mövzularda son sözü özündən başqa kiminsə deməsinə izn verməz.

Bir çox insan bu xüsusiyyət vasitəsilə şəxsiyyətli olduğunu, ağıllı hərəkət etdiyini, şəxsiyyətini nümayiş etdirdiyini düşünür. Amma nə cür adlandırılırsa-adlandırılsın, son sözü demək vərdişi çox böyük çatışmazlıqdır. İnsan, həqiqətən, çox ağıllı ola bilər. Hamıdan daha təcrübəli, daha əsaslı düşünən biri ola bilər. Ancaq bununla belə, insanın yalnız öz ağlına güvənməsi, öz dediyində israr etməsi və heç kimin düşüncəsinə etibar etməməsi yanlışdır.

## Son sözü demək xəstəliyinin əsasında təkəbbür durur

Bir insanın, nə olur-olsun, son sözü söyləmədən rahat ola bilməməsi eqoistlikdən yəni, təkəbbür hissindən qaynaqlanır.

Nəfslərindəki hər kəsdən üstün olmaq istəyi onları bu cür rəftara sürükləyir. İstəyirlər ki, yalnız öz dedikləri olsun, hər bir problem onların təklifinə görə həll edilsin, hər kəs bu insanın doğru və yanlışlarına tabe olsun,



hamının ən çox hörmət etdiyi, etibar etdiyi şəxs olsunlar. Eqoist olduqları üçün bunun əksini edən birinin davranışlarından çox narahat olurlar. Özləri kimi son sözü demək xəstəliyinə tutulmuş başqa bir insanla qarşılaşdıqları zaman isə bu şəxsə ciddi şəkildə qarşı çıxır və qalib gəlmək üçün yarışırlar.

Bir mövzuda üstünlük qazanmaq, haqlı çıxmaq, öz fikirlərini qəbul etdirmək və son sözü demək üçün gözəl əxlaqa uyğun olmayan bir çox hərəkət edə bilirlər. Bəzən qarşısındakının sözünü kəsərək, bəzən də gözəl söhbəti mübahisəyə çevirərək bu pis vərdişi davam etdirirlər.

## Son sözü demək xəstəliyi insana müxtəlif zərərlər verir

Nitq qabiliyyəti Allahın insanlara bəxş etdiyi böyük nemətdir. İnsan hər nemət kimi, bu neməti də Allahın rizasına uyğun olaraq istifadə etməlidir. Hər insan axirət günündə davranışları ilə bərabər danışıqlarından da hesaba çəkiləcək və etdiklərinin əvəzini tamamilə alacaq.

Bu həqiqəti qavrayan möminlər həyatları boyu danışıqlarının Allahın razılığına uyğun olmasına diqqət yetirərlər. Ancaq Quran əxlaqından uzaq yaşayanlar möminlərin göstərdikləri bu əxlaqdan məhrumdurlar. Çox vaxt boş və mənasız söhbətlərə dalan bu insanlar danışmağı qürurlarını təmin etmə vasitəsi olaraq görürlər. Bunun ən diqqətə çarpan göstəricilərindən biri də son sözü demək xəstəliyidir. Bu cür insanlar:

- **Mübahisəyə meyilli və əsəbi davranışları ilə özlərinə və ətraflarına zərər verirlər**

Özünü bütün insanlardan üstün görən, hər mövzunu ən yaxşı bildiyini iddia edən və buna görə də, daima son sözü özünün deməsini istəyən insanların ən diqqətə çarpan xüsusiyyətləri fikirlərini qarşı tərəfə qəbul etdirmək üçün mübahisə etmələridir. Buna ən bariz nümunə televiziyada gördüyümüz bəzi xəbər proqramlarıdır. Yüksək səslə edilən mübahisələrdə kimin nə dediyinin dəqiq aydın olmadığı bu proqramlar ya iştirakçılardan birinin hirslənərək proqramı tərk etməsi, ya da izləyənlərin heç bir nəticə əldə edə bilməməsi ilə yekunlaşır. Xəbər proqramlarında olduğu kimi, gündəlik həyatda da bəzi insanlar qarşısındakına öz fikirini qəbul etdirmək və son sözü demək üçün mübahisə edir, qarşı tərəf qəbul etmədikdə hirslənirlər. Halbuki mübahisə etmək və əsəbi olmaq ilk növbədə insanın özünə zərər verir. Bu cür insanların əsəbi davranışlarının əmələ gətirdiyi gərginlik öz bədənlərində əks olunur. Əsəbi insanlarda ürək xəstəlikləri, nevroloji pozğunluq və yaddaş itkisi riskinin daha böyük olduğu tibbi cəhətdən sübut edilmişdir. Bədənlərinin rəngi solğun, ağ və ya sarımtıldır. Daim baş ağrısı, bel ağrısı olur. Çünki əsəb bədəni sıxır, bu da sinirlərə təsir edir. Bu insanlar bəzən öz düşüncələrini qəbul etdirmək üçün kobud davranır, qarşılarındakı



insana xətər yetirir, hətta öldürə də bilirlər. Bu şəkildə, həm özlərinə, həm də qarşılarındakına böyük zərər vermiş olurlar.

**"Ali-İmran" surəsinin 134-cü ayəsində bildirilir ki, qəzəb Allahın bəyənmədiyi davranışdır.**

- **Təkəbbür göstərib lovğalanaraq şirk qoşanlar**

Son sözü demək xəstəliyinə tutulmuş insanların ən diqqətəçarpan xüsusiyyətlərindən biri də inkara uymalarıdır. Çünki bu insanlar öz doğrularını və prinsiplərini elə mənimsəyiblər ki, Allahın yoluna dəvət edilmək, iman gətirənlərin yolunu izləmək onlara ağır gəlir. Bu şəxslərin vəziyyətini Allah **"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər… (Nəml surəsi, 14)"** ayəsi ilə bildirir. Rəbbimizin Quranda əmr etdiyi düz yol yerinə öz düşüncələrini ilahlaşdıranlar uca olan Allaha şirk qoşduqlarını və bu fikirləri ilə özlərini Cəhənnəmə sürüklədiklərini belə dərk etmirlər. Allah onların vəziyyətini belə xəbər verir:

**Ona: "Allahdan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

## Yanlış qərarlar verərək işləri daha da çətinləşdirərlər

Bu şəxslərin başqa bir xüsusiyyəti isə qarşı tərəfin özündən daha ağıllı ola biləcəyini, daha məqsədəuyğun qərarlar verə biləcəyini qəbul etməmələri və buna görə, asan həll edilə bilən işlərin daha da çətinləşməsinə səbəb olmalarıdır. Çünki bu insanlar yaxşı olsa da, başqa fikirlərə bağlıdırlar. Ən kiçik bir tövsiyəyə, öyüdə belə dözümləri yoxdur. Öz ağıllarını bəyəndikləri üçün haqq olan hər cür çağırışa qulaqları tıxalı, gözləri isə bağlıdır. Halbuki, insanın həmişə doğrunu görə bilməsi mümkün deyil. Üstəlik imani dərinliyə sahib deyilsə, verdiyi qərarlar və düşüncələr, şübhəsiz ki, hikmətsiz olar. Daha tez və praktik həll ediləcək bir iş bu səbəbdən uzanar və çıxılmaz bir hala gələr. Bu isə həm insanın özünə, həm də ətrafındakı insanlara böyük çətinlik yaradar.

## Təvazökar olmaq insanı son sözü demək xəstəliyindən qoruyar

İnsan özünün haqlı çıxmasındansa, əvvəlcə, yanlarındakı müsəlman qardaşlarına sevgi ilə, hörmətlə, təvazökarlıqla, xoş münasibətlə yaxınlaşmalı, doğrunu bilsə belə, mövzunu mütləq onların könüllərini alaraq, mehribanlıqla, onların razı qalacaqları şəkildə həll etməlidir. İnsanın doğru olan bir şeyi tətbiq etməsinin bir sıra gözəl yolları var. İnsanın gözəl əxlaq xüsusiyyətlərinə əhəmiyyət vermədən, yalnız doğru bildiyini söyləyib keçməsi isə Quran əxlaqına uyğun deyil.

Bundan əlavə, insanın hər zaman, hər mövzuda mütləq ən doğru olanı bilməsi çox çətindir. Hər insanın ətrafındakı insanlardan öyrənəcəyi, istifadə edəcəyi, fikir mübadiləsi aparacağı, nümunə götürəcəyi bir çox mövzu var. Bəzən bir nəfərin heç düşünə bilmədiyi bir məsələ heç gözlənilməyən bir nəfərin ağlına gələ bilər. Allah hər kəsə bir mövzunun fərqli cəhətlərini göstərib hər birinə fərqli üsullarla düşünmələrini ilham edə bilər.

Buna görə də, insanın özündən başqa heç kimi söz sahibi qəbul etməməsi, özündən başqasının sözünü dinləməməsi və mövzuya nöqtə qoyanın həmişə yalnız özünün olmasını istəməsi məqbul əxlaq deyil.

Allah Quranda elmini dilədiyi şəxsə verə biləcəyini və hər biləndən üstün bir bilən olduğunu bildirmişdir:

**... Biz istədiyimiz kimsəni dərəcələrlə yüksəldərik. Hər biləndən üstün bir bilən də vardır! (Yusuf surəsi, 76)**

Bir müsəlman dünyanın ən ağıllı insanı olsa belə, yenə də mömin qardaşlarına qarşı təvazökar olmalıdır. Quran əxlaqına uyğun olan davranış budur. Mömin ən yaxşı bildiyi bir mövzuda belə bu əxlaqın tələbi olaraq son sözü başqalarının öhdəsinə buraxmalı, hər kəsin fikrinə hörmət etməli, nəzakətlə və könül alaraq hərəkət etməlidir.

## Hər şey uca olan Allahın ilhamı ilə həyata keçir

**Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və axirət gününə inanırsınızsa, Allaha və Elçisinə müraciət edin. Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır. (Nisa surəsi, 59)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, uca olan Allah möminlərə öz ağıllarına güvənərək hərəkət etməmələrini və son sözü özlərinin deməmələrini, əksinə, elçinin və özlərindən olan rəhbərlərin düşüncələri yönündə hərəkət etmələrini, anlaşılmazlığa düşdükləri mövzularda isə məsələnin xeyirli şəkildə həll edilməsi üçün elçiyə müraciət etmələrini əmr edir. Əslində, bu ayədə Rəbbimiz Allah çox açıq olan həqiqətə diqqət çəkir. Bu, hər şeyin Rəbbimizin idarəsi altında olduğu həqiqətidir. Çünki anlaşılmazlığa düşülən mövzu da, ortaya çıxan fikir də, əmr də, hamısı Allahın ilhamı ilə reallaşdığından hər şey uca olan Allaha aiddir.



# Eşitmə cihazlarından daha yüksək texnologiya: Ağcaqanad Qulağı

**Elm adamları eşitmə cihazlarını hazırlayarkən nə üçün insan qulağının yerinə ağcaqanad qulağını təqlid edirlər?**

Eşitmə itkisini dərman, ya da əməliyyatla düzəlmək mümkün olmadıqda və ya əməliyyat etmək riskli olduqda xaricdən gələn səsləri yüksəltmək məqsədi ilə eşitmə cihazları hazırlanır. Eşitmə cihazları iç qulaq, bəzən də orta qulaq problemlərində istifadə edilir. Ancaq tədqiqatçılar daha həssas eşitmə cihazları istehsal edərək səsi təbii səsə daha da yaxınlaşdırmağa çalışırlar. Bu işlərdən biri də Kaliforniya Universiteti Beyin Araşdırma İnstitutunun fiziologiya bölməsindəki tədqiqatçılar tərəfindən reallaşdırılmışdır. Tədqiqatçılar bu məqsədlə təbiətdəki eşitmə sistemlərini araşdırmağa başlamışlar.

## Ormia ochracea ağcaqanad növünün qulağındakı mükəmməl sistem:

Aparılan elmi işlər nəticəsində ormia ochracea ağcaqanad növünün qulağının sahib olduğu möhtəşəm sistemlə eşitmə cihazının dizaynında inqilab edəcəyi aydın olmuşdur. Bu ağcaqanadın qulağı səsin gəldiyi istiqaməti mükəmməl şəkildə təsbit edəcək şəkildə yaradılmışdır. Ron Hoy bu vəziyyəti belə izah edir:

"Bu günə qədər səsin gəldiyi istiqaməti təyin etməkdə insan qulağının ən yaxşı olduğunu zənn edirdik. Bir-birindən 15 sm uzaqlıqda olan qulaqlarımız sayəsində səs qaynağının yeri haqqında kafi məlumat əldə edə bilirik. Halbuki, ormia ağcaqanadı qulaqlarının arasında yarım millimetrlik məsafə olmasına baxmayaraq, səsin qaynağını bütün canlılardan daha yaxşı müəyyən edə bilir".

## İnsan beyni ilə ağcaqanad beyni arasındakı sürət fərqi

İnsan beyni də səsin yerini təsbit etmək üçün ormia kimi eyni üsuldan istifadə edir.







Bunun üçün əvvəl səsin yaxınlıqdakı qulağa, daha sonra uzaqda qalan qulağa çatması kifayətdir. Səs dalğası qulaq pərdəsinə çatdıqda elektrik siqnalına çevrilərək dərhal beyinə çatır. Səsin iki qulağa neçə millisaniyə fərqlə çatdığını hesablayan beyin səsin gəldiyi istiqaməti dərhal müəyyənləşdirir. İnsanda bu hesablama 10 millisaniyədə baş verir. Halbuki, bu ağcaqanad növü eyni hesabı iynə ucu böyüklüyündəki beyni ilə insandan min qat daha sürətli şəkildə reallaşdırır.

## Səs qaynağını səhv etmədən müəyyən etmək niyə əhəmiyyətlidir?

Ormia ağcaqanadının səsin gəldiyi yeri səhv etmədən tapa bilməsi soyunun davamı üçün vacibdir. Çünki sürfələrinə qida qaynağı olan bir cırcırama tapmaq məcburiyyətindədir. Ormia ağcaqanadı yumurtalarını tapdığı cırcıramanın üzərinə qoyaraq, çıxacaq parazit sürfələrin onunla bəslənmələrini təmin edir.

Ormia ağcaqanadının cırcıramanın yerini tapması üçün yaradılmış həssas qulaqları var. Bu möcüzəvi canlı mahnı oxuyan cırcıramanın yerini o qədər millimetrik hesablarla təyin edir ki, böyük bir meşənin içində hədəfini yalnız 2 dərəcəlik səhvlə tutur.

## Təkamül əfsanəsi sona çatdı

Bu ağcaqanadın çox kiçik olmasına baxmayaraq, olduqca funksional olan qulaq forması ormiafon adlı eşitmə aləti və dinləmə cihazlarının istehsalında təqlid edilməyə çalışılır. Göründüyü kimi, kiçik bir ağcaqanad da təkamül nəzəriyyəsinin "təsadüfən meydana gəlmə" sözünü kökündən çürüdən üstün quruluşa malikdir. Kiçik ağcaqanad hər xüsusiyyəti ilə onu yaradan sonsuz elm və qüdrət sahibi Yaradıcımızın üstün yaratma sənətini nümayiş etdirir. Belə kiçik bir ağcaqanadın nəinki öz-özünə təkamül kimi xəyali bir müddətlə meydana gəlməsi, hətta ağıl və zəka sahibi insanların hamısının bir yerə toplanıb ən son texnologiyaları və imkanları səfərbər etmələri ilə də meydana gəlməsi mümkün deyil. Aydındır ki, ağcaqanadın bu nöqsansız quruluşu bütün yaratdıqlarını ən incə detalına qədər bilən və bunlara hakim olan uca Allahın əsərlərindən yalnız biridir:

**Əlbəttə, Allah ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər, kafirlər isə: "Allah bu məsəllə nə demək istəyir?" - deyirlər. Allah bununla bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir. (Bəqərə surəsi, 26)**

# Azad olmaq düşüncəsiz olmaq demək deyil...

İnsanlar həyatlarının hər anında azad və rahat olmaq istəyirlər. Heç bir nizam-intizama, məcburiyyətə və ya məhdudiyyətə tabe olmadan istədiyi zaman istədiyi şeyi etmək istəyirlər. Ürəyi istəyəndə yatmaq, ürəyi istəyəndə durmaq, istəyəndə işlərini görüb, istəməyəndə təxirə salmaq, danışmaq istəməyəndə danışmamaq, düşünmək istəməyəndə düşünməmək, iradə göstərmək istəməyəndə göstərməmək və s. bunun kimi mövzularda istədiyi hərəkəti edə bilmək...

Halbuki azadlıq da müəyyən məhdudiyyətlər daxilində gözəldir. Azadlıq düşüncəsiz, məsuliyyətsiz, laqeyd olmaq demək deyil. Eyni zamanda, birlikdə yaşadığı insanlar üçün fədakarlıq etməsi, başqalarını düşünərək hərəkət etməsi, üstünlüyü ehtiyac olan mövzulara verməsi bu insanın azadlığının məhdudlaşdırılması demək deyil. İnsanın gözəl əxlaq göstərməsi onu məhdudlaşdıran deyil, onu gözəlləşdirən, ucaldan xüsusiyyətdir.

Yanında biri yatarkən: "Azadlığımı məhdudlaşdıra bilmərəm, əsas mənim istəyimdir, mənim rahatlığımdır", - deyərək, qışqırıb-bağıraraq danışan, musiqinin, ya da televizorun səsini sonuna qədər açan birini düşünün. Ya da aşağı mərtəbədəki qonşularını heç düşünmədən gecə yarısı evdə səs-küy salan bəzilərini...

Heç kim bu cür düşüncəsiz insanlarla söhbət etmək, onların ətrafındakılara verdiyi narahatlıqlarla qarşılaşmaq istəməz. İnsanlardakı bu davranış pozuntusunu aradan qaldırmağın bir yolu var, o da Quran əxlaqına tabe olmaqdır. Quran həm insanlara axtardıqları azadlığı mükəmməl şəkildə yaşadır, həm də bu azadlıq heç kimi narahat etmir. Bu səbəbdən, mömin Allahın təyin etdiyi əxlaq sərhədləri daxilində azad yaşaya bilmə rahatlığına malikdir.

Müsəlman olmaq vicdanlı olmaq deməkdir. İradəli olmaq, ağıllı olmaq, nəfsi məcbur etmək, nəfsə qalib gəlmək deməkdir.



Mömin dünyanın ən azad, ən rahat insanı olar, həyatı boyu, yaşadığı hər an seçimlərini vicdanına görə təyin edər. Ürəyi istəyəndə yatıb, ürəyi istəyəndə yemək yeyib, ürəyi istəyəndə istirahət edib, ürəyi istəyəndə işləmək kimi bir əxlaq tərzi yoxdur. Məqsədi Allahın razılığının ən çoxunu qazanmaqdır. Hər an ağlı və vicdanı ilə ətrafında olan hadisələri dəyərləndirər və ən xeyirli, ən hikmətli, ən faydalı və ən vacib mövzuya yönələr.

Bu səbəbdən, lazım olsa, başqasının ehtiyacını özününkündən üstün tutmaqla bəlkə öz azadlığından məhrum olar, amma insanı xoşbəxt edən azadlıq forması da məhz budur. Yoxsa başqasını narahat etdiyini bilərək, öz istəklərini əldə etdiyi zaman xoşbəxt ola bilməz. Ancaq vicdanına uyğun hərəkət etsə, həqiqətən, azad olar və ancaq bu onu xoşbəxt edər.

Çünki azadlıq, zənn edildiyi kimi, insanın yalnız fiziki olaraq azad olması demək deyil. Əsas mənəvi mənada azad olmaqdır. Əsl azadlıq Allahın insanın ruhuna və ürəyinə hiss etdirdiyi genişlik, rahatlıq, güvən və dinclik duyğularının hamısıdır. Bu da insanın imanı, təqvası, təvəkkülü və təslimiyyəti ilə birbaşa əlaqəlidir.

Bu səbəbdən, əsl azadlıq və xoşbəxtlik insanın nə istəsə, onu etməsində deyil, Allahın razılığına uyğun olan əxlaqı yaşamasındadır. Bu əxlaqın qazandıracağı mənəvi azadlıq insanın düşünmədən yaşadığı sərhədsiz fiziki azadlıq ilə əsla müqayisə edilməyəcək dərəcədə böyükdür. Allah bu neməti yalnız möminlərə lütf etmişdir.

Allah Quranda əsl xoşbəxtliyin yolunu belə bildirmişdir:

**... Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rəd surəsi, 28)**



# Həyatın kosmosdan gəlməsi mümkün deyil

Darvin XIX əsrin ortalarında təkamül nəzəriyyəsini irəli sürdükdə həyatın mənşəyindən, yəni ilk canlı hüceyrələrinin necə əmələ gəldiyindən heç bəhs etməmişdi. XX əsrin əvvəllərində həyatın mənşəyini araşdıran elm adamları isə təkamül nəzəriyyəsinin əsassızlığını anlamağa başladılar. Canlılardakı mürəkkəb və mükəmməl quruluş bir çox tədqiqatçının yaradılış gerçəyini görmələri üçün zəmin hazırladı. Həyatın təkamül nəzəriyyəsinin iddia etdiyi kimi "təsadüf məhsulu" olmadığı riyazi hesablamalar, elmi təcrübə və müşahidələrlə sübut edildi.

### Fred Hoylun həyatın mənşəyi ilə bağlı iddiaları

Təsadüf iddiasının təkzib edilməsi və canlıların yaradıldığının məlum olması ilə bəzi elm adamları həyatın mənşəyini kosmosda axtarmağa başladılar. Fred Hoyl (Fred Hoyle) və Çandra Uikramasinkh (Chandra Wicramasinghe) bu iddianı ortaya atan elm adamları arasında ən məşhurlarıdır. Bu iki alim birlikdə qurduqları ssenaridə kosmosda həyat üçün "mayalandırmanı həyata keçirən" bir güc olduğunu irəli sürdülər. Hoyl-Uikramasinkhin ssenarisinə görə, bu toxumlar kosmosun boşluğunda yerləşən qaz və toz buludları və ya meteorit ilə daşınaraq yer üzünə gətirilmiş və burada həyatı əmələ gətirmişlər.

### Frensis Krik də bu yolu davam edir

DNT-nin varlığını kəşf edən, elmi fəaliyyəti ilə məşhurlaşaraq Nobel mükafatına layiq görülən Frensis Krik də həyatın mənşəyini






kosmosda axtaran alimlərdəndir. Krik canlıların yer üzündə təsadüflərlə əmələ gəlməsinin ağılsız düşüncə olduğunu anlamış, lakin bu dəfə də yer üzündəki həyatın "yadplanetli" ağıllı varlıqlar tərəfindən əmələ gətirildiyini iddia etmişdir.

Göründüyü kimi, həyatın kosmosdan gəlməsi fikri elm dünyasının vacib şəxslərini də təsiri altına almışdır. Bu gün həyatın mənşəyindən bəhs edən müxtəlif məqalə və mübahisələrdə bu məsələ tez-tez gündəmə gətirilir. Həyatın başlanğıcını kosmosda axtaran dünyagörüşünü iki əsas baxış tərzinə görə nəzərdən keçirmək məsələyə aydınlıq gətirəcəkdir.

## Elmi uyğunluq

Kosmosdakı qaz və toz buludları ilə Yerə daşınmış meteoritlərin tədqiq edilməsi həyatın kosmosda başladığı tezisini dəyərləndirmək üçün bir açardır. Çünki bu kosmik cisimlərdə həyatın kosmosda mayalanma yolu ilə dünyadankənar varlıqlar tərəfindən əmələ gətirildiyi iddiasını dəstəkləyən və ya təsdiq edən heç bir dəlilə rast gəlinməmişdir. Bu mövzuda bu günə qədər aparılan bütün araşdırmalar nəticəsində bu cisimlərdə bəzi çox bəsit üzvi maddələrdən başqa, canlılarda mövcud olan hər hansı mürəkkəb molekul müəyyən edilməmişdir. Bu cisimlərdə müəyyən edilən üzvi maddələrin həyat üçün heç bir əhəmiyyəti yoxdur.

Bundan əlavə, bu maddələrdə canlıları əmələ gətirən molekullardakı asimmetriya da yoxdur. Məsələn, canlıların əsasını təşkil edən zülalları əmələ gətirən amin turşuları nəzəri cəhətdən sağ əlli və ya sol əlli olaraq iki yerə ayrılırlar. Ancaq zülalların əmələ gətirilməsində yalnız sol əlli amin turşuları iştirak edir. Meteoritlərdəki bəsit üzvi molekullarda (canlıların quruluşundakı kimyəvi molekullar) isə bu cür nizamlı quruluş deyil, nizamsızlıq var. (Massimo Pigliucci, Rationalists of East Tennessee Book Club Discussion, Oktyabr 1997)

Kosmosdakı cisimlərin yer üzünə həyat gətirməsi ilə bağlı tezisin qarşısında duran maneələr bununla bitmir. Bu tezisi müdafiə edənlər bu cür prosesin bu gün nə üçün baş vermədiyini açıqlaya bilmirlər. Çünki meteorit yağışı bu gün də davam edir. Ancaq bu cisimlərin araşdırılması "mayalanma" tezisini təsdiq edən dəlillər üzə çıxarmır.

Bu tezisi müdafiə edənlərin qarşısındakı digər mühüm sual da budur: həyatın kosmosda bir şüur tərəfindən meydana gətirilərək Yerə daşınması qəbul edilsə belə, yer üzündəki milyonlarla müxtəlif canlı növü necə əmələ gəlmişdir? Bu çıxılmaz vəziyyət həyatın kosmosda başladığını iddia edənlərin qarşısında duran ən böyük əngəldir.

Bütün bunlarla bərabər, kainatda yer üzündəki həyatı əmələ gətirdiyi iddia edilən hər hansı bir sivilizasiya və ya varlığa aid izə də rast gəlinməmişdir. Xüsusilə son 30 il ərzində sürətlə irəliləyən astronomik müşahidə və araşdırmalar nəticəsində kainatda Yerdə həyat əmələ gətirəcək bir sivilizasiyaya aid heç bir iz tapılmamışdır.

## "Yadplanetlilər" tezisinin arxa planı

Göründüyü kimi, yadplanetli varlıqların yer üzündə həyatı

əmələ gətirdiyi tezisi heç bir elmi təmələ əsaslanmır. Bu tezisi təsdiq edən və ya dəstəkləyən heç bir tapıntı yoxdur. Ancaq bu tezisi ortaya atan elm adamları belə bir axtarışa, əslində, mühüm bir həqiqəti gördükləri üçün başlamışlar.

Yer üzündə həyatın başlanğıcını təsadüflərdə axtaran nəzəriyyənin müdafiə edilməsinin heç bir mənası yoxdur. Canlıların quruluşu və hüceyrədəki komplekslik ancaq şüurlu yaradılışı göstərir.

Burada digər bir cəhət də var: həyatın mənşəyini kosmosda axtaran elm adamları həyatın başlanğıcı mövzusuna yeni şərh gətirmirlər. Məlumdur ki, təkamül nəzəriyyəsi həyatın yer üzündə təsadüflər nəticəsində ortaya çıxdığını müdafiə edir. Hoyl, Uikramasinkh, Krik kimi alimlər də bu cür təsadüfi əmələ gəlmənin mümkün olmadığını gördükdə, həyatın kosmosdan gəlməsi fikrinə üz tutublar. Həyatın təsadüflər nəticəsində meydana gəlməsinin qeyri-mümkünlüyü yer üzünə aid olduğu kimi, kosmosa da aiddir və şüurlu yaradılışı qəbul etmək məcburiyyəti yenə də ortaya çıxır.

Ancaq bu şüurlu yaradılışın mənbəyi barədə ortaya atdıqları "yadplanetlilər" tezisi çox ziddiyyətli və mənasızdır. Müasir fizika və astronomiya kainatımızın bundan 12-15 milyard il əvvəl "Big Bang" adlandırılan böyük partlayışla meydana gəldiyini aşkar etmişdir. Kainatdakı hər cür maddi varlıq da bu zaman ərzində ortaya çıxmışdır. Beləliklə, Yerdəki həyatın mənşəyini kainatdakı başqa bir maddi mənşəli həyatda axtaran düşüncə kosmosda mövcud olduğunu iddia etdiyi həyatın necə meydana gəldiyini də açıqlamalıdır. Bu cür yanaşma məsələnin həll edilməməsinə səbəb olur.

Göründüyü kimi, "kosmosdan gəlmə" tezisi təkamül nəzəriyyəsini dəstəkləmir, əksinə, təkamülün mümkün olmadığını üzə çıxarır və həyat üçün şüurlu yaradılışdan, yəni bütün canlıların Allah tərəfindən yaradıldığının başqa bir açıqlama olmayacağını qəbul edir. Bu tezisi ortaya atan elm adamları doğru əsasa istinad edərək səhv yola düşmüş və yaradılışın mənbəyini kosmosda axtarmağa çalışmışlar.

Ancaq şüurlu yaradılışın mənbəyinin "yadplanetlilər" olmadığı açıqdır. Bir anlıq yad planetlilərin olduğunu fərz etsək belə, onların özlərinin də təsadüfən ortaya çıxmadıqları, ancaq şüurlu şəkildə yaradıldıqları aydındır (çünki fizika və kimya qanunları kainatın hər yerində eynidir və bu qanunlar həyatın "təsadüfən" əmələ gəldiyini təsdiqləmir). Bu da kosmosu, kainatı və onların içindəki hər cür varlığı hər şeyin fövqündə, heç nəyə tabe olmayan, maddədən və zamandan asılı olmayan, üstün elm, qüdrət və ağıl sahibi Allah tərəfindən yaradıldığını göstərir.



# Bir ayə, Bir açıqlama

**(Bu Quran) sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və təmiz ağıl sahibləri də ibrət alsınlar! (Sad surəsi, 29)**

İman gətirənlər həyatları boyu Quran əxlaqını insanlar arasında yaymaq və insanların Allaha iman gətirməsinə səbəb olmaq üçün ciddi səy göstərirlər. Onların bu cəhdlərinin əvəzində inkar edənlərdən bir qrup tarixən iman gətirənlərə qarşı çıxmış, onlara təzyiq və zorakılıqla mane olmağa çalışmışdır. Allah Quranda inkar edənlərə qarşı daima möminlərlə birlikdə olduğunu, onların işlərini asanlaşdıracağını, möminlərə yardımçı və dəstək olacağını bildirir. Allah yolunda səmimi cəhd göstərən möminlər bunları həyatlarının hər anında yaşayırlar. Allah hər işlərində asanlıqla nəticə yaradır, onlara uğur qazandırır. Ən çətin, mürəkkəb görünən hadisələrdə belə möminlərə böyük asanlıq bəxş edir. Hətta zəif imanlı insanların ümidsizliyə düşdüyü, heç bir çıxış yolunun qalmadığını düşündüyü hallarda belə, Allah möminlərə qatından yardım göndərmiş və möminlərə zəfər qazandırmışdır.

İnananların yeganə yardımçısı və dostu Allahdır. Möminlər hər cür çətinlikdə, şəraitdə Ondan yardım istəyir və Allah da onlara yardım edir.

Uca Rəbbimiz **"...Möminlərə yardım etmək Bizim borcumuzdur. (Rum surəsi, 47)"** ayəsi ilə bütün iman gətirən qullarına kömək edəcəyini bildirir. Ancaq Allahın yardımını qazanmaq üçün ən əsas şərtlərdən biri Onun bildirdiyi din əxlaqını təbliğ etmək, Onun hədlərini qorumaq və bunun üçün səy göstərməkdir.

Bu cür səmimi cəhdin əvəzində möminlər daima Allahın yardımına ümid bəsləyirlər. Allahın vəd etdiyi kimi, zəfər ancaq Ona inananların, Onun rizası üçün cəhd göstərənlərindir.

Şübhəsiz ki, dünyada möminləri tək və köməksiz qoymayan Allah axirət həyatında da onların yeganə Dostu və Köməkçisi olacağını vəd vermişdir:

**Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik! (Ğafir surəsi, 51)**

# MÖMİNLƏRİ DAİMA ƏN YAXŞIYA TƏŞVİQ ETMƏYİN YOLLARI

**Möminləri hansı yollarla şövqləndirmək olar?**

**Möminlər bir-birlərini xeyirə dəvət edərkən hansı əsas cəhətlərə diqqət yetirməlidirlər?**

İman gətirən insan ancaq ətrafına deyil, öz millətinə və digər xalqlara qarşı da özünü məsul hesab edər. Bu məsuliyyət bütün insanların İslam əxlaqından xəbərdar yaşamasına səbəb olmaqdır. İnsanlar istədikləri həyat tərzini seçməkdə azaddırlar. Ancaq əksəriyyət Allahı və İslam əxlaqını tanımadığı üçün dinsizliyi seçə bilər. Bir çoxu din əxlaqını bilmədiyi üçün səhv edir və ya problemlərin içindən çıxa bilmir. Quranda Rəbbimizin insanlara bildirdiyi hökmlərdən xəbərdar olmadığı üçün bədbəxt, əsəbi, ümidsiz yaşayan milyonlarla insan var.Möminlər bu kütlələrə İslam əxlaqını öyrətmək və ondan sonra seçimlərini etmələri üçün onlara imkan tanımaqla Allah qarşısında məsuldurlar. Çünki iman gətirənlər bu cür insanların həll edə bilmədiyi problemlərin həll yolunu Quran ayələrindən xəbərdar olduqları üçün bilirlər. Bu təqdirdə, bilənlərin bilməyənlərə bu həll yollarını öyrətməsi fərzdir. Ayədə belə buyurulur:

**Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Möminləri də təşviq et! Ola bilsin ki, Allah kafirlərin gücünü qırmış olsun. Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir. (Nisa surəsi, 84)**

## Təbliğin əhəmiyyətini vurğulamaq

İnsanların sıxıntılardan xilas olma yollarını bilib ancaq bu həqiqətləri onlardan gizlətmək və izah etməmək bir fəlakətdən xəbərdar olub insanları necə xilas olacaqlarını bildirməməyə bərabərdir. Əgər fəlakət baş versə və insanlar ölsə, onda bu həqiqəti bildirməyən şəxs ciddi məsuliyyət daşıyar. Buna görə, iman

gətirənlər bütün bəşəriyyətə görə ağır və ciddi məsuliyyət altındadırlar. Bu məsuliyyətin ciddiliyi iman gətirənlərin çox az olması və dünyanın əksəriyyətinin inkar edənlərdən ibarət olmasından irəli gəlir. Ona görə, möminlərin qəlbindəki şövqün daima gücləndirilməsi, qəflətə düşmələrinə imkan verilməməsi və görəcəkləri işlərdə maddi və mənəvi cəhətdən dəstəklənmələri çox vacibdir. Belə ki, Allah möminlərin bu vəzifəni yerinə yetirmək üçün hazırlanıb təşviq edilmələrini "Ənfal" surəsinin 65-ci ayəsində fərz etmişdir. Allah həmin ayədə belə buyurur:

**Ey Peyğəmbər! Möminləri döyüşə təşviq et. Əgər aranızda iyirmi səbirli kişi olsa, (kafirlərdən) iki yüzünə qalib gələr; əgər aranızda yüz (səbirli kişi) olsa, kafirlərdən mininə qalib gələr. Çünki onlar anlamayan adamlardır. (Ənfal surəsi, 65)**

## Möminləri gözəl sözlə xəbərdar edib vicdanlarını hərəkətə keçirən təsirli söz söyləmək

İman gətirənlər təbliğ edərkən məlumatsız olduqlarına və ya yanıldıqlarına görə, çox səhv edə bilərlər. Yanlış məlumat verər, yanlış izah edər, yaxşılıq etmək istəyərkən bilmədən yanlış davrana bilərlər. Bu təqdirdə, mütləq onları xəbərdar etmək və doğrusunu söyləmək lazımdır. Çünki İslam əxlaqını təbliğ etmək və insanları imana dəvət etmək çox mühüm və diqqət tələb edən xidmətdir. Bir çox insan İslam əxlaqına uyğun yaşayıb-yaşamayacağına ona bu əxlaqı təbliğ edən insanın üslubuna, münasibətinə və davranışlarına görə qərar verir. Əgər din əxlaqını təbliğ edən insana qarşı güvən və sevgi bəsləyirsə, İslam əxlaqına qəlbi isinməyə başlayar. Bu səbəbdən, din əxlaqını təbliğ etmək çox ciddi məsuliyyətdir.

Ona görə, İslam əxlaqının daha çox insan tərəfindən öyrənilməsi və bu əxlaqa uyğun yaşanması üçün hərəkət edən möminlərin dinlərini daha yaxşı təbliğ etmələri onların xəbərdar edilib hazırlanmalarından asılıdır. Çünki tövsiyələrlə bir insanın bilik, dünyagörüşü, müraciət, üslub, söz ehtiyatı, mimika, geyim kimi məsələlərdə çatışmayan cəhətlərinin düzəldilməsi mümkündür. Beləliklə, Allahın möminləri hazırlamaqla bağlı əmrini yerinə yetirmiş oluruq. Ancaq ayələrdə möminləri hazırlayarkən bunu təşviq edərək və şövqləndirərək etmək bildirilir. Ona görə, tövsiyə edərkən şövqləndirici, ruhlandırıcı tərzdə etmək lazımdır.









### Əhvalını pozmadan, qəlbini qırmadan, şövqü azaltmadan öyüd vermək

İlk öncə, nəsihət edən insan səmimi olmalıdır. Allah rizası üçün nəfsini qatmadan, mərhəmət və şəfqətlə edilən nəsihət qarşı tərəfə fayda verə bilər. Ancaq həsəd, əsəb və kindən qaynaqlanan tənqiddə deyilən sözlər sərt və mərhəmətsiz olur. İnsanlara kömək etmək əvəzinə onları çıxılmaz vəziyyətə salır və tənqid edilən şəxs nə edəcəyini bilmir. Bu insanın fəaliyyət göstərmə istəyini azaldır, sevincini itirir və ya gücünü əlindən alır. Halbuki təşviq edərkən qarşı tərəfin gözəl xidmətləri dilə gətirilir, yaxşı niyyətli cəhdi təqdir edilir və çatışmayan cəhəti gözəl üslubla vurğulanaraq ona həll yolları göstərilir. Səhv danışan insanın doğru şəkildə necə danışacağı, yanlış üslubdan istifadə edirsə, doğru üslub ona izah edilir. Möminlərin hazırlanıb təşviq edilməsində bu şəkildə gözəl sözlə, səmimi qəlbdən edilən tənqidlərin faydası çoxdur.

### Müsəlman yüksək ideal sahibidir

Din insanı həm gözəl əxlaqa uyğun yaşamaqdan, həm də bu əxlaqı ətrafındakılara xatırlatmaqdan məsul edir. Ancaq din əxlaqının izah edilməsi və ya xatırladılması dedikdə təkcə sözlə təbliğ etmək nəzərdə tutulmur. Çünki insan davranışı və baxışlarındakı ifadə ilə də Allahı, haqq dini təbliğ edə bilər. Hətta Bədiüzzaman Səid Nursinin də bildirdiyi kimi, bəzən "lisani-hal, lisani-qaldan (sözlü təbliğdən) daha güclü və təsirli danışır". (Şualar, On üçüncü Şua)

Bu baxımdan, iman gətirən insan eyni zamanda hər kəsə nümunə olacaq şəkildə davranmalıdır. Şübhəsiz ki, bunun üçün gözəl əxlaqla yanaşı, yüksək idealı olmalı və bu ideala çatmaq üçün müntəzəm irəliləməyə çalışmalıdır. Ona görə, müsəlman Allahın bildirdiyi din əxlaqını təmsil edən şəxs kimi din əxlaqının qazandırdığı üstünlükləri ən gözəl şəkildə əks etdirməyi və Allah rizasının ən çoxunu qazanmağı hədəfləməlidir. Ayədə belə buyurulur:

**Onlar Allaha, axirət gününə iman gətirir, yaxşı işlər görməyi əmr edir, pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. (Ali-İmran surəsi, 114)**

**Adnan Oktar hz. Mehdinin (ə.s.) məzhəb ayrı-seçkiliyi etmədən bütün müsəlmanları elmi mübarizə üçün hazırlayıb təşviq edəcəyindən bəhs edir:**

ADNAN OKTAR: ... **"Sən Allah yolunda vuruş! Sən ancaq özünə cavabdehsən. Mömінləri də təşviq et!.. (Nisa surəsi, 84)".** *Hansı möminləri? Əhli-sünnə möminlərini, şiələri, vəhabiləri deyil, bütün dünya müsəlmanlarını. Allah burada nə əhli-sünnə müsəlmanlarına, nə şiələrə, nə cəfərilərə, nə ələvilərə, nə də bektaşilərə deyil, bütün dünya müsəlmanlarına müraciət edir, elə deyilmi? Bu xitab kimə ünvanlanır? Bütün müsəlmanlara. Allah Quranda nə deyir? "Möminləri də təşviq et..." Bütün dünya müsəlmanlarını hazırlayıb təşviq etmək mehdiyyətin vəzifəsidir. Mehdiyyət onları elmi-mənəvi cəhətdən hazırlayacaq, kitablarla, CD-lərlə, filmlərlə təchiz edəcək və Türk-İslam Birliyinə, ittihadi-İslama, gözəlliyə, sevgiyə, elmə, incəsənətə, demokratiyaya təşviq edəcək.*



*"...Ola bilsin ki, Allah kafirlərin gücünü qırmış olsun..." Darvinistlərin, materialistlərin, kommunistlərin, faşistlərin gücünü qıracaq. Allah buyurur ki, "Allahın qüvvəsi daha çox, cəzası daha şiddətlidir". Hal-hazırda da Allahın qəhredici qüvvəsinə şahid oluruq. Artıq darvinistlər dirçələ bilmir.*

*Bundan əvvəl müqavimət göstərir, qapını açdırmaq istəmirdilər. İndi artıq itələdikcə ayaqları sürüşür, qapı sonuna qədər açılır. "Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar, kim üz çevirərsə, (bil ki,) Biz səni onlara gözətçi göndərməmişik. (Nisa surəsi, 80)" Bu ayə Peyğəmbərə (s.ə.v) itaət etməyə dəvət edir, bu, Peyğəmbərin (s.ə.v) ilahlıq xüsusiyyəti olmadığını, əksinə, onun bir qul və İlahi təbliği yerinə yetirən elçi olduğunu vurğulayır. Eyni zamanda ayə Peyğəmbərə (s.ə.v) ancaq təbliğ vəzifəsi aid edib, hökm vermə vəzifəsinin olmadığını iddia edənlərə, sünnəni adi məsələyə çevirənlərə ciddi xəbərdarlıqdır. Deməli, "Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar" ayəsindəki hökmünə görə, Peyğəmbər (s.ə.v): "Hz. Mehdinin (ə.s.) gəlişini müjdələyin", -deyirsə, mütləq itaət etmək lazımdır. (Samsun AKS TV, 27 yanvar 2011-ci il)*

Möminləri hazırlayıb təşviq etməyin müxtəlif metodları var. Bunlardan hər biri Allah rizası üçün edilən ibadətdir. Bir insanı yaxşı əmələ təşviq etmək bəlkə Allah qatında o əməlin də savabını almağımıza səbəb olar (doğrusunu Allah bilir). Bu səbəbdən, möminlərə əlimizdən gəldiyi qədər dəstək olmaq, onları daha çox çalışmağa və cəhd göstərməyə təşviq etmək bir mömin üçün axirətdə savabını alacağı çox böyük ibadətdir.

## Möminləri təşviq edərkən uğurlu işlərini vurğulamaq və sevindirmək çox vacibdir

Etdiyi əməllərin qarşılığını Allahdan gözləyən və ancaq Rəbbimizin razılığını qazanmaq üçün çalışan insan ətrafdan tərif gözləməz. Ancaq əgər möminlər onun səmimiliyini və cəhdini görüb təqdir edirlərsə, bu, onun üçün böyük nemət və şövq mənbəyi olar. İş əzmi, qətiyyəti və möminlərə olan sevgisi artar, Allah qəlbindəki gücü artırar. Dəstəkləndiyini və sevildiyini bilərək rahatlıqla çalışar. Çünki möminlərin təqdiri və sevgisinin Allahın təqdiri və sevgisi olduğunu ümid edər. Allahın sevgisi isə bir mömin üçün ən böyük nemətdir.

## Aşağıdakı ayə möminlərin qəlbindəki şövqü açıq-aşkar göstərir:

**Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşmədən Allah yolunda malları və canları ilə cihad edənlərdir! (İmanlarında) sadiq olanlar da məhz onlardır. (Hucurat surəsi, 15)**

Möminlər Allahın razılığını qazanmağı həyatlarının əsl məqsədinə çevirərək var gücləri ilə bu məqsədə çatmaq üçün səy göstərən şəxslərdir. Allah Quranda onlardan **"Allah yolunda malları və canları ilə cihad edən (Hucurat surəsi, 15)"**, yəni səy göstərən, cəhd edən kəslər kimi bəhs edir. Çünki bütün həyatlarını Allaha həsr etmiş, Allahın rizasına, cənnətinə qarşılıq olaraq bütün maddi-mənəvi varlıqlarını fəda etmişlər.




# ANA SÜDÜ VƏ

Ana südü Allahın yaratdığı saysız-hesabsız möcüzədən biridir. Ana südündə yeni doğulmuş körpənin hər ehtiyacını təmin edən maddələr var. Habelə, körpənin inkişaf mərhələlərində dəyişən ehtiyaclarına uyğun olaraq ana südünün tərkibi də dəyişir. Elm adamlarının laboratoriyada belə hazırlaya bilmədiyi ana südünü ananın döşündəki bəzi hüceyrələr hazırlayır. Bu hüceyrələrdə ana südünün bənzərsiz formulu var və nə vaxt hazırlamağa başlayacaqlarını, hazırladıqları maddənin tərkibini nə vaxt dəyişdirməli olduqlarını bilirlər.

Bəs ana südünün hazırlanması necə başlayır, bu proses necə tənzimlənir? Bu sualın da cavabında bir çox yaradılış möcüzəsi gizlidir. Südün hazırlanmasında endokrin sistemi və sinir sistemi ortaq çalışırlar. Qüsursuz məlumat göndərilməsi və planlaşdırma nəticəsində bu proses həyata keçirilir.

Ananın döşündəki süd vəzilərini hərəkətə keçirən çox xüsusi hormon var. Bu hormon prolaktin hormonudur. Prolaktin hormonunu hipofiz vəzi ifraz edir.

Ancaq hamiləlik dövrünün əvvəlində prolaktin hormonunun ifrazını məhdudlaşdıran bəzi amillər var. Bu amilləri yoxuşu enən avtomobilin tormoz pedalına basılması kimi düşünə bilərik. Avtomobil yoxuş boyu aşağıya doğru hərəkət etməyə meyillidir, ancaq tormoz pedalı basıldığı müddət boyu hərəkət edə bilməz, yəni südün hazırlanması dayandırılır.

Prolaktin hormonunun ləngidilməsi yerində verilmiş qərardır. Çünki körpə hələ doğulmadığına görə, ananın erkən süd ifraz etməsinin heç bir faydası yoxdur. Bəs südün ifrazı necə dayandırılır? Prolaktinin erkən ifraz olunmasının qarşısı necə alınır? Burada mükəmməl sistem işə düşür. Beyinin hipotalamus bölgəsi prolaktin hormonunun ifrazına mane olan hormon ifraz edir. PİH (Prolaktin İnhibiting Hormon – prolaktinin qarşısını alan hormon) adlandırılan bu hormon prolaktin ifrazını ləngidir, bir növ tormozlayır.




# OKSİTOSİN HORMONU

Bəs tormoza necə basılır? Hamiləlik dövründə ifraz edilən ostrogen adlı hormon hipotalamusun tormoza basmasını, yəni PİH ifraz etməsini təmin edir. Körpənin doğulması ilə ostrogenin ifrazı azalır. Ostrogenin azalması ilə PİH də azalır. Bu proses ayağın tormozdan yavaş-yavaş qalxmasına və avtomobilin yoxuş boyu aşağıya doğru hərəkət etməsinə bənzəyir. Beləliklə, prolaktinin ifrazı tədricən artır. Prolaktin hormonu da süd vəzilərini ana südü ifraz etmək üçün hərəkətə gətirir.

Bu, bir yaradılış möcüzəsidir. Hamiləliyin ilk aylarında südün ifrazının bu dizaynla qarşısı alınmışdır. İndi bütün bu sistem üzərində diqqətlə düşünək:

Prolaktin hormonunu ifraz edən hipofiz hüceyrələri süd vəzlərini haradan tanıyırlar? Süd ifraz edən hüceyrələrə "süd ifraz et" əmrini hansı ağıl və şüurla verirlər?

Doğuşdan əvvəl prolaktinin ifrazına mane olan hormonlar süd ifrazına hələ ehtiyac olmadığını haradan bilirlər?

Bu hormonlar süd ifrazına prolaktinin təkan verdiyini və südün ifrazını ləngitmək üçün prolaktin hormonunun ifrazının qarşısını almalı olduqlarını haradan öyrəniblər?

Bütün bu möcüzəvi sistemi yaradan aləmlərin Rəbbi olan Allahdır. Hər şey Onun ilham etdiyi şəkildə hərəkət edir.



# 2012:
# Ateizmin sonu,
# İnanc
# əsrinin baslanğıcı



Son dövrdə elm və fəlsəfə sahəsində baş verən irəliləyişlərin qarşısını ateizm ala bilmir. Şübhəsiz, ateist dünyagörüşünün sarsılması ilə başqa bir dünyagörüşü dünyaya hakim olacaq ki, bu da Quran əxlaqıdır.

Tarixdə əhəmiyyətli dönüş məqamları mövcuddur. Hal-hazırda da dönüş məqamlarından birindəyik. Bəzi insanlar bunu qloballaşma və ya informasiya əsrinin başlanğıcı adlandırırlar. Son 20-25 ildir ki, elm və fəlsəfə sahəsində baş verən irəliləyişlər sayəsində XIX əsrdən etibarən elm və düşüncə dünyasına təsir edən ateizm süqut edir.

Ateizm XVIII əsr Avropasındakı bəzi din əleyhdarı mütəfəkkirlərin fikirlərinin yayılması ilə inkişaf etdi. Diderot, Baron, Holbax kimi materialistlər kainatın sonsuzdan bəri var olan maddə olduğunu və maddədən başqa bir varlığın olmadığını irəli sürdülər. XIX əsrdə ateizm daha da yayıldı. Feyerbax, Marks, Engels, Nitçşe, Darkheym, Freyd kimi mütəfəkkirlər ateist düşüncəni elm və fəlsəfə sahələrində tətbiq etdilər.

Ateizmə ən böyük dəstək verən insan isə yaradılışı inkar edən və təkamül nəzəriyyəsini qarşıya qoyan Çarlz Darvin oldu. Darvinizm ateistlərin əsrlərdir cavab verə bilmədikləri “Canlılar və insan necə var oldu?” sualına “elmi” cavab gətirdi. XIX əsrin sonlarında ateistlər hər şeyi açıqladıqlarını zənn etdikləri dünyagörüşü meydana gətirdilər. Bu dünyagörüşü:

**-Kainatın yaradıldığını inkar edir və kainatın sonsuzdan bəri var olduğunu, başlanğıcının olmadığını deyirdi.**

**-Kainatdakı nizam və tarazlığın təsadüfən olduğunu irəli sürür, kainatda heç bir məqsədin olmadığını iddia edirdi.**

**-Canlıların və insanın necə var olduğunun darvinizm tərəfindən açıqlandığını zənn edirdi.**

**-Tarix və sosiologiyanın Marks və Darkheym, psixologiyanın isə Freyd tərəfindən ateist prizmadan açıqlandığını zənn edirdi.**

Bu fikirlərin hər biri XX əsrdəki elmi, siyasi və ictimai tərəqqi ilə yanlış olduğu ortaya çıxdı. Astronomiyadan biologiyaya, psixologiyadan ictimai əxlaqa qədər bir çox nailiyyət, təsbit və nəticələr ateizmin bütün fərziyyələrini sarsıtdı.

İndi müxtəlif elm sahələrinin bu istiqamətdə ortaya qoyduqları nəticələri qısaca analiz edib, ateizmdən sonrakı dövrün bəşəriyyətə nə gətirəcəyinə baxaq.

## Kosmologiya: sonsuz kainat anlayışının süqutu və yaradılışın kəşf edilməsi

Fridrix Nitçşe kimi XIX əsr filosofları ateizmin cəmiyyətdə yayılması üçün böyük səy göstərdilər. XXI əsrdə isə elmin hər budağında ateist dünyagörüşünün verdiyi zərərlər ortaya çıxdı. XX əsr elminin ateizmə vurduğu ilk böyük zərbə kosmologiya sahəsində oldu. Sonsuzdan bəri var olan kainat inancının əsassızlığı ortaya çıxdı və kainatın bir başlanğıcının olduğu, başqa sözlə desək, yoxdan yaradıldığı elmi dəlillərlə sübut edildi.

Sonsuzdan bəri var olan kainat inancı qərb dünyasına materialist fəlsəfə ilə birlikdə daxil olmuşdu. Qədim Yunanıstanda yayılan bu fəlsəfə maddədən başqa bir varlığın olmadığını müdafiə edir, kainatın sonsuzdan bəri var olduğunu, sonsuza qədər də mövcud olacağını ortaya qoyurdu. Müasir dövrdə qərbli elm və fikir adamlarının yenidən qədim yunan qaynaqlarına maraq göstərmələri ilə birlikdə materializm də yenidən qəbul edilməyə başladı.

Materialist kainat anlayışını müasir dövrdə ilk dəfə müdafiə edən məşhur alman filosofu İmmanuel Kant oldu. Kant kainatın sonsuzdan bəri var olduğunu və bu sonsuzluq içində hər ehtimalın mümkün sayıldığını irəli sürdü. XIX əsrdə isə kainatın bir başlanğıcının, yəni yaradılış anının olmadığı geniş şəkildə qəbul edilməyə başladı. Karl Marks, Fridrix Engels kimi dialektik materialistlərin bu iddiaları XX əsrə də yayıldı.

Politzer yaradılışa qarşı sonsuz kainat fikrini müdafiə edərkən, elmin onun tərəfində olduğunu sanırdı. Halbuki, elm çox keçmədən, Politzerin: “Əgər elədirsə, bir Yaradıcı olduğunu qəbul etmək lazımdır”, - deyərkən ifadə etdiyi gerçəyi, yəni kainatın bir başlanğıcının olduğunu isbat etdi.

Bu isbat XX əsr astronomiyasının bəlkə də ən əhəmiyyətli anlayışı olan “Big Bang” nəzəriyyəsindən gəldi. Beləliklə, maddə və zaman həcmsiz nöqtənin partlaması ilə ortaya çıxmışdı.




Başqa sözlə desək, kainat yoxdan yaradılmışdı.

Nəticədə, müasir astronomiyanın gəldiyi nəticə budur: maddəni və zamanı hər ikisindən də müstəqil olan, sonsuz güc sahibi bir Yaradıcı var etmişdir. Yaşadığımız kainatı var edən sonsuz güc və ağıl sahibi olan Allahdır.

## Təbiət elmləri: darvinizmin iflası və şüurlu dizaynın zəfəri

Yuxarıda da qeyd etdiyimiz kimi, XIX əsrdə zirvəyə qalxan ateizmin ən əhəmiyyətli dayağı darvinin təkamül nəzəriyyəsidir. Darvinizm insanın və bütün canlıların mənşəyinin şüursuz təbiət mexanizmləri olduğunu irəli sürməklə ateistlərə əsrlərlə axtardıqları fürsəti təmin etmişdir.

Paleontologiya, biokimya, anatomiya, genetika kimi elm sahələrinin ortaya qoyduğu tapıntılar təkamül nəzəriyyəsini müxtəlif istiqamətdən süqut etdirdi. (Harun Yəhya, Həyatın gerçək mənşəyi)

Bu həqiqətlər XX əsrin sonunda darvinizmi küncə sıxışdırdı. Bu gün başda ABŞ olmaqla, bir çox qərb ölkələrində elm adamları arasında şüurlu dizayn (intelligent design) anlayışı yayılır. Elmi tapıntılar canlılarda dizayn olduğunu göstərir və bu da yaradılışı sübut edir. Qısacası, elm Allahın bütün canlıları yaratdığını bir daha təsdiq edir.

## Psixologiya: freydizmin iflası və inancın qəbul edilməsi

Psixiatr Ziqmund Freyd ruhun varlığını inkar edən, insanın bütün mənəvi dünyasını cinsi və oxşar dünyəvi impulslarla izah etməyə çalışan psixologiya nəzəriyyəsini ortaya atdı. Ən böyük hücumu isə dinə qarşı idi. 1927-ci də nəşr olunan "Bir illüziyanın gələcəyi" (The Future of an Illusion) adlı kitabında dini inancın bir növ ağıl xəstəliyi (nevroz) olduğunu irəli sürür və bəşəriyyətin inkişaf etməsi ilə birlikdə dini inancların tamamilə ortadan qalxacağını iddia edirdi. Freyddən sonra da psixologiya elmi ateist təməldə inkişaf etdi.

Ancaq psixoloqların çoxunun içinə düşdüyü bu böyük aldanışın özlərinin apardıqları psixoloji araşdırmalar sayəsində yalan olduğu üzə çıxdı. Əvvəlcə freydizmin əsas fərziyyələrinin heç bir elmi dayağının olmadığı ortaya çıxdı. Amerikalı yazıçı Patrik Qlinnin sözü ilə desək, XX əsrin sonunda müasir psixologiya dinlə




yenidən tanış olmağa başladı və insanın zehni həyatı haqqındakı sekulyar dünyagörüşünün həm nəzəri, həm də praktik səviyyədə çökdüyü ortaya çıxdı".

Bundan əlavə freydizmin əsas müddəaları Darvinin təkamül nəzəriyyəsinə əsaslanırdı. XX əsrin inkişaf edən elmi isə darvinizmin tamamilə əsassız olduğunu ortaya çıxardı. Bu isə o deməkdir ki, darvinizm olmadığı yerdə freydizm öz aktuallığını itirir.

### Tibb: qəlblərin necə rahat olmasının kəşfi

Amerikanın Sağlamlıq Araşdırmaları Milli Mərkəzinin əməkdaşı David B. Larson tərəfindən aparılan araşdırmanın nəticələrinə görə, dindarlar digər insanlara nisbətən ürək xəstəliyinə 60% daha az tutulur, onlar arasında intihar hadisələri 100% daha aşağı olur, onlar təzyiq xəstəliyinə daha az tutulurlar. Siqaret çəkənlər arasında onların 1/7 nisbətdə olduğu ortaya çıxmışdır.

Bu, onu göstərir ki, Allaha olan inanc hər hansı bir mənəvi təsirdən daha güclüdür. Benson bu araşdırmadan sonra heç bir inancın Allaha olan inanc kimi zehnə rahatlıq vermədiyi nəticəsinə gəldiyini açıqlamışdır.

Bəs niyə imanla insanın ruh və bədəni arasında belə xüsusi bir əlaqə var? Sekulyar tədqiqatçı olan Benson belə nəticəyə gəlmişdir ki, insan bədəni və zehni Allaha görə nizamlanmışdır.

Müasir tibb yuxarıda qeyd etdiyimiz tapıntılar işığında bu gerçəyin fərqinə varmaq yolundadır. Qlinnin ifadəsi ilə desək, müasir tibb müalicənin maddi üsullardan başqa ölçüləri olduğunu qəbul etmək yolunda irəliləyir.

### Cəmiyyət: kommunizmin və faşizmin iflası

Ateizmin XX əsrdəki iflası siyasət və ictimai əxlaq səviyyəsində də etibarlı oldu. Kommunizmin dağılması bunun əhəmiyyətli nümunələrindən biridir. İdeologiyanın qurucuları olan Marks, Engels, Lenin, Trotski və ya Mao ateizmi ən fundamental prinsip kimi mənimsəmişdilər. Kommunist rejim ateizmin cəmiyyətə mənimsədilməsini və dini inancların yox edilməsini vacib hədəf etmişdi.

XX əsr yalnız kommunizmin deyil, XIX əsrdəki din əleyhdarı fəlsəfələrin başqa meyvəsi



olan faşizmin də süqutunu sənədləşdirmişdir. Faşizm ateizm ilə bütpərəstliyin qarışığı sayılan və İlahi dinlərə düşmən olan fəlsəfənin məhsuludur. Faşizmin fikir atası Fridrix Nitçşe bütpərəst barbar cəmiyyətlərin əxlaqını tərifləmiş, başda xristianlıq olmaqla İlahi dinlərə hücum etmiş, hətta özünü dəccal (antixrist) adlandırmışdır. Nasist Almaniyasındakı qorxunc vəhşilikləri Nitçşe və davamçısı Martin Haydeggerin düşüncələri doğurmuşdur. 55 milyon insanın həyatına bais olan II Dünya Müharibəsi ateizmin bəşəriyyətə gətirdiyi fəlakətlərin nümunəsidir.

Ateist mənşəli və ictimai təxribata gətirib çıxaran hərəkatlardan biri də 60-70-ci illərdə yayılan cinsi inqilab hərəkatıdır. Bu hərəkatın böyük ictimai yaralar açdığı sekulyar tarixçilər tərəfindən də qəbul edilir.

Bütün bu ateist mənşəli tətbiqlərin həmişə fəlakətlə nəticələnməsi, ictimai baxımdan da ateizmin tam süqut etdiyinin dəlillərindəndir.

## Yeganə həll: Quran əxlaqı

Bura qədər qısaca yekunlaşdırdığımız məlumatlar ateizmin iflas etdiyini göstərir. Başqa sözlə desək, bəşəriyyət Allaha yönəlir. Məşhur dövlət adamlarından kino ulduzlarına və ya pop sənətçilərinə qədər qərb cəmiyyətinin bir çox öndəri əvvəlkindən daha dindardır. Uzun illər ateist olaraq yaşadıqdan sonra gördüyü gerçəklər qarşısında Allaha iman gətirən bir çox insan var. (Harun Yəhya, Qərb dünyası Allaha yönəlir)

Buna səbəb olan elmi tərəqqinin 1970-ci illərin ikinci yarısından etibarən başlaması isə olduqca maraqlı bir vəziyyətdir. Şübhəsiz, ateist dünyagörüşünün sarsılması, yerinə başqa bir dünyagörüşünün hakim olması mənasını verir ki, bu da Quran əxlaqıdır. Dünya 1970-ci illərin sonlarından (və ya hicri təqvimi ilə XIV əsrin əvvəllərindən) etibarən dinin yüksəlişinə şahid olur. Digər ictimai formasiyalar kimi bu da bir gündə deyil, uzun zaman ərzində reallaşdığı üçün bir çox insan bunun fərqinə vara bilmir.



Halbuki, inkişaf edən hadisələri bir az diqqətlə qiymətləndirənlər dünyanın fikri sahədə böyük dönüş nöqtəsində olduğunu görürlər.

Əsrlərlə insanlara ağıl və elmin yolu kimi göstərilən ateizmin böyük bir ağılsızlıq və cəhalət olduğu açıq şəkildə ortaya çıxır. Ateizmdən xilas olan dünya Allaha və dinə yönələcək.

Şübhəsiz, bu dövrdə müsəlmanların üzərinə əhəmiyyətli vəzifələr düşür. Müsəlmanlar bu böyük fikri dəyişikliyin fərqində olan, onu şərh edən, qloballaşmanın səbəb olduğu imkanlardan istifadə edən, bu yolla həqiqəti ən yaxşı təmsil edən insanlar olmalıdırlar.

Sekulyar tarixçilər bu faktı izah etməyə çalışacaqlar. Ancaq onlar Allahın varlığı mövzusunda dərin bir yanılma içində olduqları kimi, tarixin axışı mövzusunda da dərin bir yanılma içindədirlər. Əslində, tarix Allahın təyin etdiyi qədərə (adətullah) görə işləyir. Allah bunun bizə: **“Sən Allahın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allahın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən (Fatir surəsi, 43)”**, - buyuraraq bildirir. Bu səbəbdən, tarixin bir məqsədi var. Tarix Allahın dilədiyi kimi inkişaf edir. Bir ayədə belə buyurulur: **“Onlar ağızları ilə Allahın nurunu söndürmək istəyirlər. Allah isə (buna) yol verməz, kafirlərin xoşuna gəlməsə də, O, Öz nurunu tamamlayar”. (Tövbə surəsi, 32)**

Allah vəhy etdiyi İlahi dinlərlə insanlara nurunu endirmişdir. İnkarçılar isə bu nuru ağızları ilə, yəni sözləri, təlqinləri, təbliğatları və fəlsəfələri ilə söndürmək istəyirlər. Ancaq Allah nurunu tamamlayacaq, yəni din əxlaqını dünyaya hakim edəcək.

Bunlar göstərir ki, Allahdan bixəbər yaşayan bir çox qafil insanın imanla şərəflənəcəyi ateizmdən sonrakı dövr sürətlə yaxınlaşır.



# Müasirlik adı altında gizlənən batil təlim: REİNKARNASİYA

## Reinkarnasiya nədir?

**Qarışıq ruh halına, yanlış dünyagörüşünə yönəldən və Quranda inkar edilən reinkarnasiya azğınlığının əsl üzü necə kamuflyaj edilir?**

**Tamamilə xəyali fikirlərə əsaslanan bu inanc niyə gənclərə silsilə yazılar, məqalələr və dünya səviyyəsində məşhur olan sənətkarlar vasitəsilə yeridilməyə çalışılır?**

Bəzi insanlar ölüm və axirət qorxularını aşmaq, özlərini bu həqiqətlərdən uzaq tutmağa çalışaraq təsəlli vermək üçün reinkarnasiya kimi batil inancları qəbul etmək istəsələr də, niyə bu inanclar onlara rahatlıq gətirmir?

Bəzi insanlar dünyadakı xaosdan, qarışıqlıqdan, müharibələrdən, çətinliklərdən, səmimiyyətsizliklərdən uzaqlaşmağın və sülh şəraitində yaşamağın yollarını axtarırlar. Lakin bu axtarış zamanı bəzi yanlış inanclara da yönəlirlər. Bu yanlış inanclardan biri də karma fəlsəfəsinə əsaslanan reinkarnasiyadır.

## Reinkarnasiya inancının yanlışlığına İmam Rəbbani də diqqət çəkmişdir

Böyük İslam alimi İmam Rəbbani reinkarnasiya inancının yanlışlığını bu şəkildə bildirmişdir:

**“Qəlbləri xəstə, məlumatları az olan bəzi şəxslər, hətta özlərini şeyx kimi tanıdan bəzi dinsizlər tənasühə (reinkarnasiyaya) inanır. “Ruhlar kamilləşmədən əvvəl bir bədəndən ayrıldığı zaman başqa bir bədənə keçir. Kamilləşdikdən sonra insanlara qayıtmırlar, tənasüh yolu ilə yetkinləşirlər”, - deyir, tənasühlə bağlı bir çox hekayələr uydururlar... Tənasühlə ruhlar kamilləşirsə, Cəhənnəm kimlər üçündür, kimlər əzab çəkir? Buna inanmaq Cəhənnəmi inkar etmək və hətta öldükdən sonra yenidən dirilməyə inanmamaqdır”.**

## Karma inancı nədir?

Karma inancı hinduizm, buddizm və çaynizm kimi batil şərq fəlsəfələrində əhəmiyyətli yer tutur. Sanskrit dilinə mənsub olan karma sözü “hərəkət” mənasını verir. Hind fəlsəfələrində karma anlayışı səbəb-nəticə qanunu kimi tanınır. Buna görə də karmaya inanan insan öldükdən sonra başlayan yeni həyatındakı müvəffəqiyyətlərinin, ictimai mövqeyinin və ya həyat tərzinin əvvəlki həyatındakı davranışlarına və əxlaqına bağlı olduğuna inanır.

Karmanın əsasında isə insanın ölümdən sonra dünyaya yenidən başqa bir bədənlə gəlməsi və bu ölüb-dirilmənin müntəzəm olaraq davam etməsi mənasını verən reinkarnasiya inancı var.



## Karma inancına görə reinkarnasiya

Reinkarnasiya insanın öldükdən sonra başqa bir bədənlə dünyaya yenidən gəlməsi haqqında inancdır.

Karma fəlsəfəsinin nəticəsi olaraq reinkarnasiya, yəni insanın öldükdən sonra başqa bir bədənlə dünyaya yenidən gəlməsi inancı hind fəlsəfələrinə köklü surətdə yerləşmişdir. Karma fəlsəfəsi "Dinlərin tarixi" adlı kitabda qısa şəkildə belə izah edilir:

Bu inanca əsasən, insan etdiklərinə görə heyvan, bitki, insan və ya tanrı şəklində doğulur (Allahı tənzih edirik).

Reinkarnasiyada axirət inancı yoxdur, öldükdən sonra dünya həyatında eyni ruhla, lakin yeni bədənlə dirilmə inancı vardır. Lakin bu, Allahın Quranda bildirdiyi hökmlərlə ziddiyyət təşkil edən, batil və azğın inancdır.

Bu fəlsəfədə diqqət çəkən başqa azğın inanc isə insanın ilah olaraq da doğula bilməsidir. Bu, tarix boyu inanılan ən batil və saxta iddiadır. Bu iddia Allaha şirk qoşmaq mənasını verir. Halbuki, məlumdur ki, heç bir insan ilah ola bilməz. Yalnız bir İlah var, O da uca Allahdır. O, nə doğmuş , nə də doğulmuşdur. Bütün kainatın və canlıların sahibi, yaradanı, qoruyucusu və İlahı Allahdır. Onun tayı-bərabəri yoxdur. Rəbbimiz olan Allah bu həqiqəti Quranın "İxlas" surəsində belə bildirir:

**"De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri də yoxdur!" (İxlas surəsi 1- 4)**

"İxlas" surəsində bildirilən bu həqiqətdən başqa inanca sahib olanlar, şübhəsiz ki, doğru yoldan sapmışdır.

## Reinkarnasiya azğınlığına nümunə...

Bu fəlsəfədə varlı və ya müvəffəqiyyətli olan insanın keçmiş həyatında yaxşı insan olduğu üçün bu həyatında var-dövlətlə mükafatlandırıldığı düşünülür. Eynilə, kasıb, şikəst, yaxud müvəffəqiyyətsiz olan insanın



keçmiş həyatında pisliklər etdiyi və bunun əvəzini indiki həyatında bu şəkildə aldığı iddia edilir. Hətta bu batil iddiaya əsasən, insan etdiyi pisliyə görə, sonrakı həyatında bitki və ya heyvan görünüşündə də ola bilər.

İlk baxışda reinkarnasiya inancının insanlara bəzi gözəl əxlaq xüsusiyyətləri qazandıra biləcəyi zənn edilə bilər. Çünki bu inanca görə, bir insan yenidən dünyaya gəldiyi zaman ən yaxşı şəraitdə yaşamaq istəyəcək, buna görə də, indiki həyatında sonrakı dünya həyatını qazanmaq üçün ən doğru şəkildə yaşamağa cəhd edəcək. Lakin həm karma, həm reinkarnasiya inancı, həm də hinduizm, buddizm kimi fəlsəfələrin ehtiva etdiyi bir çox batil inanc insan ağlına, məntiqinə, vicdanına və fitrətinə ziddir. Buna görə də, bu fəlsəfələrin ehtiva etdiyi qanun və tətbiqlərin insanlara gözəl əxlaq, cəmiyyətlərə də rahatlıq, sülh və xoşbəxtlik gətirməsi mümkün deyil. Bu inancların məşhur olduğu, hətta milli din olaraq qəbul edildiyi ölkələrdəki həyat şəraiti və ədalətsizliklər bunun ən bariz nümunələrindəndir.

## Reinkarnasiyanı inkar edən Quran hökmləri

Uca Rəbbimizin qullarına rəhmət və xəbərdarlıq olaraq göndərdiyi Quranda **"Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, (ona cavab olaraq) Biz sənə haqqı və ən yaxşı yozumu verməyək (Furqan surəsi 33)"** ayəsində də bildirildiyi kimi, hər şeyin izahı var. Reinkarnasiya, hinduizm, buddizm və karma fəlsəfələrində öldükdən sonra başqa bədənlə yenidən dünyaya dönmə inancı da bunlardan biridir.

Quranda ən çox təkrarlanan mövzulardan biri ölümlə birlikdə dünya həyatının sona çatması və dünya həyatında edilən əməllərin əvəzinin axirətdə alınmasıdır. Bu həqiqət aşağıdakı ayədə belə bildirilir:

**"Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim oddan uzaqlaşdırılıb Cənnətə daxil edilərsə, o, uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir". (Ali-İmran surəsi, 185)**

Ayədə bildirilən qiyamət günü və mükafatların tam veriləcəyi həqiqətindən əlavə reinkarnasiya iddiasını əsassız edən və Quranda bildirilən başqa bir mövzu isə öldükdən sonra dünyaya geri dönməyə mane olan sərhəd (bərzəx) olduğunun bildirilməsidir:

**"Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri (indi) edəm". Xeyr! Onun bu dedikləri ancaq (boş) bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx vardır". (Muminun surəsi 99-100)**

Ayələrdəki ifadələr reinkarnasiya inancının xəyali inanc olduğunun dəlilidir. Rəbbimiz qullarına əcr qazanmaları üçün dünya həyatını bir dəfə nəsib etmiş və bu dünyadakı həyatlarını ölümlə nəticələndirəcəyini açıq şəkildə bildirmişdir.

## Niyə bəzi insanlar reinkarnasiya inancına meyil edir?

Reinkarnasiya heç bir ilahi qaynağa əsaslanmayan batil inancdır. Sadəcə, hind fəlsəfələrində deyil, dünyanın bəzi bölgələrində reinkarnasiyaya inanan, daha doğrusu reinkarnasiyanın doğru olmasını istəyən insanlar var. Bunun səbəbi dinə inanmayan, axirətin varlığını inkar edən, ölümdən sonra yox olmaqdan və ya sonsuza qədər Cəhənnəmdə qalmaqdan qorxan insanların reinkarnasiyanı bu qorxularını məğlub etmək üçün çıxış yolu kimi görmələridir. Çünki reinkarnasiya inancının əsasında ölümdən qorxmağın yersiz olduğu və insanın yenidən doğularaq arzularına çata biləcəyi kimi doğru olmayan təlqinlər durur.

Halbuki, Quranda ölümün və dirilişin bir



dəfə olduğu bildirilir. Hər insan dünyada sadəcə bir dəfə yaşayır, sonra ölür və ölümündən sonra yenidən dirildilərək, dünyada etdiklərinə görə Cənnətlə mükafatlandırılır, yaxud Cəhənnəmlə əzablandırılır. Yəni insanın bir dünya həyatı, bir də sonsuza qədər yaşayacağı axirət həyatı var. İnsanların öldükdən sonra dünya həyatına geri dönə bilməyəcəkləri Quranda açıq şəkildə bildirilmişdir:

**"Məhv etdiyimiz obalara qadağa qoyulmuşdur və onların (əhalisi bir daha bu dünyaya) qayıtmayacaqlar". (Ənbiya surəsi 95)**

## İnsanlar necə aldanırlar?

Diqqət etsək, görərik ki, dövrümüzdə azğın təlimlərin təbliğatında istifadə edilən şüarlardan bəziləri "müasirlik", "cəsurluq" və "azadlıq"dır. Şübhəsiz ki, müasir dünyagörüşünə sahib olmaq, dövrün inkişaflarını yaxından izləmək, yeniliyə açıq olmaq gözəl xüsusiyyətdir. Lakin buradakı məqsəd insanları din əxlaqından uzaqlaşdırmaq üçün hər cür azğın təlimi və əxlaqsızlığı bəzədilmiş təlqinlərin ardında insanlara təqdim etməkdir. On il əvvəl insanların qınadıqları və qəti şəkildə qarşı olduqları müxtəlif davranışların artıq cəmiyyət tərəfindən adi qarşılanması bu təbliğatın Quran əxlaqından uzaq yaşayanların üzərində nə qədər təsirli olduğunun göstəricisidir.

Reinkarnasiya kimi inancların insanların diqqətini çəkməsinin ən əhəmiyyətli səbəblərindən biri, dünya səviyyəsində məşhur olan bəzi sənətçilərin bu inanclara olan marağıdır. Tibetdə buddist geyimlərində şəkillər çəkdirən, yaxud reinkarnasiyaya inandıqlarını açıqlayan bəzi məşhurlar insanların diqqətlərini bu azğın inanclara çəkməyə çalışırlar. Bundan əlavə, dinsizliyi təlqin edərək degenerasiyanı yaymaq məqsədi ilə yaradılan mistik və sirli görüntü xüsusilə gənclərin bu təlimlərə marağına səbəb olur.

## Nəticə:

**"...qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır". (Rəd surəsi 28)**

Bu məqalədə keçən bütün ayələr ölümün bir dəfə olduğunu açıq və qəti şəkildə göstərir. Bəzi insanlar ölüm və axirət qorxularını məğlub etmək və özlərini təsəlli etmək üçün reinkarnasiya kimi batil inancları qəbul etsələr də, öldükdən sonra bir daha dünyaya gəlməyəcəklər. Uca Allah bir Quran ayəsində belə bildirir:

**" Onlar dünya həyatının zahirini bilirlər, axirətdən isə xəbərsizdirlər". (Rum surəsi 7)**

Unutmaq olmaz ki, hər insan bir dəfə öləcək və bu ölümündən sonra Allahın təqdiri olaraq sonsuza qədər yaşayacağı axirət həyatı başlayacaq. Allah hər insanı dünyada etdiyi yaxşılıq və ya pisliklərə görə Cənnətlə mükafatlandıracaq, yaxud Cəhənnəmlə cəzalandıracaq. Allah sonsuz ədalət sahibi, sonsuz mərhəmətli və şəfqətli olandır, hər kəsə etdiyinin əvəzini əskiksiz olaraq verəndir.

Ölümdən və ya Cəhənnəmə getmə ehtimalından qorxaraq reinkarnasiya kimi batil inanclarda təsəlli axtarmaq isə, şübhəsiz ki, insana böyük ziyan verər. Ağıl və vicdan sahibi hər insan Cəhənnəm əzabından xilas olub Cənnəti qazanmaq üçün səmimi qəlblə Allaha yönəlməli, hər an Allahı zikr etməli və insanlar üçün yeganə hidayət rəhbəri olan Qurana tabe olmalıdır. Sonsuz rahatlığı axtaranlar üçün yeganə qurtuluş yolu budur. Quranda bu həqiqət belə bildirilmişdir:

**"Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar. (Allah) onları Cəhənnəm əzabından qorumuşdur – sənin Rəbbinin lütfkarlığı sayəsində. Məhz bu, böyük uğurdur". (Duxan surəsi 56- 57)**

# Allahın Cənnət əhli üçün hazırladığı nemətlər

Allah Quranda Cənnəti təsvir edən ayələrlə insanlara dünyadakılarla müqayisə edilməyəcək bir nemət üfüqü açır. **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik hüzurumuzda bundan da artığı vardır. (Qaf surəsi, 35)"** ayəsi ilə Cənnətdəki nemət bolluğu xəbər verilir.

Allah insanları hər şeyin ən gözəlindən, ən mükəmməlindən zövq alacaq şəkildə yaratmışdır. Bu səbəbdən, insan həyatı dərk etməyə başladığı andan etibarən bu mükəmməlliyə çatmaq üçün cəhd edir. Daima gözəllik və nemət axtarır. Ancaq bunu nə qədər çox istəsə də, bunun üçün nə qədər çox səy göstərsə də, dünya həyatında heç vaxt axtardığı mükəmməlliklə qarşılaşa bilməz. Çünki Allah dünya həyatını xüsusi olaraq qüsurlu və əksik yaratmışdır.

Əlbəttə, Allahın belə yaratmasında bir çox hikmət var. Çünki **"O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Hakimdir. (Həşr surəsi, 24)"** ayəsində bildirildiyi kimi, Allahın yaratması qüsursuzdur. Rəbbimiz dilədiyi hər şeyi yaratmağa qadir olandır. Bu səbəbdən, dünya həyatındakı bütün əksikliklərin bir məqsədi var. Bunlardan biri də Cənnətin varlığını qavramaq və bunun üçün səmimi səy göstərməkdən ibarətdir.

Allah insanın fitrətini ancaq Cənnətdə rahat edə biləcəyi və nəfsinin istəklərini ancaq orada ödəyə biləcəyi şəkildə yaratmışdır. Quranın bir çox ayəsində bu həqiqət açıqlanmışdır. Buna görə, insan əsl həyatını Cənnətdə

yaşayacağını əsla unutmamalıdır. Bu mövzudakı Quran ayələrindən bəziləri belədir:

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsl həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

**Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan Cənnətə tələsin. (Ali-İmran surəsi, 133)**

## Cənab Adnan Oktarın Cənnət təsvirləri

*Cənnətdə Allaha və Onun təcəllisinə aşiq olacağıq*

*"Cənnət gözəlliklər yurdudur. Cənnətin hər yeri gözəldir. Çeşmələri, bağçaları, yastıqları, Allah yastıqların belə naxışlı olduğunu söyləyir Cənnətdə. Yataqları atlasdandır. Hər yeri bir-birindən gözəldir Cənnətin. Biz gözəlliyə, Allahın gözəlliklərinə, təcəllisinə aşiq olacağıq. Allaha aşiq olacağıq". (Adnan Oktarın Kanal Malatyadakı canlı müsahibəsi, 07 yanvar, 2009)*

## Cənnətdə ziddiyyət yoxdur, hər şey müsbətdir

*"Cənnətdə zövq üçün oturarsan, zövq üçün yeyərsən. Dünyada isə acıdan xilas olmaq üçündür, insanlar acıdan xilas olmaq üçün su içirlər. Orada isə kef üçün, zövq üçün olur hər şey. Yəni hər hansı bir acıdan xilas olmaq üçün deyil. Məsələn, burada soyuducudan istifadə edirik, soyudan alətlərdən istifadə edirik. Niyə? İstidən narahat olduğumuz üçün. Orada istidən narahat olma problemi yoxdur, yəni əziyyət yoxdur. Dünyada müsbətlər və mənfilər var, ziddiyyətlər var. Cənnətdə isə yoxdur. Yəni hər şey müsbətdir. Burada hər şeyin istisnasız ziddi var. Yaxşı-pis, gözəl-çirkin, çirkli-təmiz, elə deyilmi? Orada - Cənnətdə elə bir şey yoxdur". (Adnan Oktarın Kon TV-dəki canlı müsahibəsi, 8 fevral, 2009)*

## Cənnətdə yeni rənglər, yeni səslər, yeni dadlar var

*"Cənnətdə yeni rənglər var, yeni səslər var, yeni notlar var, yeni zövqlər var. Çox təəccüblənəcəklər, İnşaAllah. Çox xoşlarına gələcək insanların, rəngləri, hissləri daha fərqli olacaq, yeni dadlar olacaq. Heç bilmədikləri yeni dadlar dadacaqlar, İnşaAllah". (Adnan Oktarın Kaçkar TV-dəki canlı müsahibəsi, 19 fevral, 2009)*

## Cənnət huriləri, qılmanları və vildanları möminlərə xidmət edəcəklər

"Cənnət huriləri, vildanları, qılmanları var. Onlar oranın bəzəyi, yaraşığıdır. Yəni gənc və gözəl qadınlar (hurilər) (Tur surəsi, 20, Duxan surəsi,

*54), gözəl və kiçik uşaqlar, gənc və gözəl cavanlar (qılmanlar və vildanlar) (Tur surəsi, 24, Vaqiə surəsi, 17, İnsan surəsi, 19) … Bunlar müsəlmanlara xidmət edirlər. Hamısı Allahın yaratdığı xüsusi varlıqlardır… Amma insandırlar, yəni Allahı xatırlamaları, üslubu, danışığı ilə mübarək varlıqlardır". (Adnan Oktarın Çay TV-dəki canlı müsahibəsi, 25 fevral 2009)*



## Cənnət əhli peyğəmbərlərlə söhbət edəcək

*"Cənnətin bir gözəlliyi də budur, yəni qarşılıqlı söhbətlər… Peyğəmbərlər nə etdilər? Hər peyğəmbərdən ayrı-ayrı soruşacağıq. Hz. Musa necə etdi, nə etdi, onun səhnələrini görəcəyik". (Adnan Oktarın Çay TV-dəki canlı müsahibəsi, 25 fevral 2009)*

## Möminin dünyada zövq aldığı hər şey Cənnətdə də yaradılacaq

*"Burada dünyada sevdiyi heyvanları varsa, xoşladığı şeylər varsa, onlar orada yenidən canlanacaq. Onları sevəcək, onlarla birlikdə olacaq. Xoşuna gələn nə varsa… Məsələn, texniki alətlərdən xoşlanırsa, onlar yaradılacaq. Avtomobildən xoşlanırsa, avtomobil…*

*Təyyarədən xoşlanırsa, təyyarə…" (Adnan Oktarın Çay TV-dəki canlı müsahibəsi, 25 fevral, 2009)*

### Axirət Cənnət əhli üçün sevgi yurdudur

*"Axirət Cənnət əhli üçün çox möhtəşəm, gözəl sevgi yurdudur. Doya-doya sevgini yaşayacağımız, söhbət edəcəyimiz bir yerdir". (Adnan Oktarın Kon TV-dəki canlı müsahibəsi, 8 fevral, 2009)*

### Möminlər Cənnət nemətlərdən sərhədsiz faydalanacaqlar

*"Məsələn, burada yemək yeyirik, dərhal doyuruq. İki qabla filan… Orada elə deyil. İstədiyin qədər yeyərsən. Yenə yeyərsən, yenə yeyərsən, meyvələri istədiyin qədər yeyərsən. Burada 2-3 meyvə yesən, doyarsan. Orada elə deyil, çəkin də artmaz. Xolesterol problemi də yoxdur. Heç bir şey yoxdur, yuxun gəlməz, yorulmazsan". (Adnan Oktarın Kon TV-dəki canlı müsahibəsi, 8 fevral 2009)*

### Cənnətdə möminlər üçün bütün nemətlərin əsli yaradılacaq

**ADNAN OKTAR:** *… Suları gözəldir, hər şeyi xoş ətirlidir. Məsələn, qoxu dalğaları gəlir. Məsələn, bir gün gül, bir gün qərənfil qoxusu kimi… Amma daha mükəmməl olacaq. Məsələn, insanlar çiyələk yeyərkən belə çiyələyə şəkər pudrası qoyurlar, bilirsiniz.*

**APARICI:** Bəli.

**ADNAN OKTAR**: *O, onun çatışmazlığıdır. Deməli, insanların beynində əsl çiyələk anlayışı var. Məsələn, insanlar heç normal portağal tapa bilməzlər. Çox nadir taparlar, amma onda da yenə bir əksiklik taparlar. Əsl portağalı orada tapacaqlar. Məsələn, qarpızın əslini tapa bilməzlər. Orada əslini görəcəklər, İnşaAllah. (Adnan Oktarın Çay TV-dəki canlı müsahibəsi, 25 fevral 2009)*

### Möminlər Cənnətdə ağıllarından keçən hər şeyə qovuşacaqlar

*"İnsanların xoşuna gələn kiçik çaylar olacaq, su arxları olacaq. Çox gözəl evlər olacaq. Amma həddindən artıq gözəl evlər, həddindən artıq gözəl paltarlar olacaq. Həddindən artıq gözəl yeməklər olacaq və hər cür texniki alət, yəni bizim bildiyimiz hər şeyə, ağlımızdan keçən hər şeyə qovuşma imkanımız var. Çünki Quranda bu açıq şəkildə bildirilir. "… Orada onların ürəklərinin istədikləri hər şey var", - deyir Allah*

*(Nəhl surəsi, 31). Yəni bizim xəyal etməyimiz kifayət edəcək. (Adnan Oktarın Kaçkar TV-dəki canlı müsahibəsi, 12 fevral, 2009)*

## Cənnət əhlində qüsur və acizlik əlaməti olmayacaq

*"Cənnət qadınları da çox gözəldir. Heç bir şişirtmə, heç bir şey, qəribəlik yoxdur, qüsursuz gözəldirlər. İnsanın acizliyinə aid heç bir şey yoxdur. İnsana aid acizliklər qəsdən verilir dünyada. Qadınlarda və kişilərdə heç bir qüsur, əksiklik və acizlik əlaməti olmayacaq və sonsuza qədər bu belədir". (Adnan Oktarın Ekin TV-dəki canlı müsahibəsi, 26 yanvar 2009)*

## Cənnətdə çirklənmə, tozlanma yoxdur

*"Məsələn, toz yoxdur Cənnətdə, çirklənmə olmaz. Toz möcüzədir. Tozun hər bir dənəsi belə möcüzədir. Xüsusi yaradılır. Əşya xüsusi olaraq köhnəldilir. İnsan yaşlanır. Cənnətdə yaşlanma yoxdur. O da möcüzədir. Çirklənmə yoxdur. İnsan bir dəfə təmiz olaraq Cənnətə girəcək. Təmiz olacaq və sonsuza qədər bir daha çirklənməz. Yəni bədənində heç bir ifrazat meydana gəlməz. Gözyaşı ifrazatı daxil olmaqla, heç bir ifrazat meydana gəlməz. Sonsuza qədər bu, belədir. İnsan bu dünyada çox acizdir. Təpədən-dırnağa insanın acizliyini hər kəs bilir. Bu acizliyin heç biri yoxdur Cənnətdə. Acizlik xüsusi olaraq yaradılmışdır dünyada. Dünya sevgisinin olmaması üçün xüsusi yaradılmışdır. Kədərli hadisənin olması mümkün deyil Cənnətdə. Çünki yalnız möminlər və yalnız Allahın dedikləri var". (Adnan Oktarın Tempo TV-dəki canlı müsahibəsi, 28 yanvar 2009)*

## Cənnətdə Allahdan bir rəhmət olaraq bezmə və yorulma yoxdur

*"Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir". "Öz lütfü ilə bizi əbədi iqamətgahda yerləşdirən Odur. Orada bizə heç bir yorğunluq toxunmayacaqdır!" İnsanlar gecə oldumu, dərhal yuxuları gəlir. Burada yorğunluğun olmadığını deyir.*

*Burada bizə kədərin də toxunmayacağını deyir (Fatir surəsi, 32-35). Cənnətdə insanlar deyirlər: "Bezərikmi". "Bezginlik də yoxdur", - deyir; Allah sevgisindən bezilərmi? Rəhmanın söhbətindən, Allah eşqindən bezilərmi? İçdikcə içiləcək eşq şərbəti. Eşqdir o, İnşaAllah". (Adnan Oktarın Ekin TV-dəki canlı müsahibəsi, 9 mart 2009)*

### Cənnətdə yaradılan gözəlliklərdən bəziləri

*Məsələn, xalatlar, paltarlar, bütün paltarlar çox gözəl bəzənmişdir. Bu dünyada da elə bəzəkli yaradılır. Məsələn, paltarlar da bizim beynimizdə yaradılır. Allah yaradır. Lakin bəzəyi azdır. Yəni dünyada keyfiyyətli, gözəl bir paltar görən insan heç olmamışdır. Yəni o mənada, texniki mənada mükəmməl olmaz.*

**APARICI:** *Köhnəlməyən paltar yoxdur.*

**ADNAN OKTAR:** *Heç yoxdur, bəli. Ancaq Cənnətdə bu, mümkündür. Cənnətdə sonsuza qədər köhnəlməz. Amma daima dəyişər. Daim qoxu külәkləri meydana gələcək Cənnətdə. Məsələn, gül qoxusu kimi, qərənfil qoxusu kimi, bənövşə qoxusu kimi, amma daim dəyişəcək. Amma bu dünyada Allah bunu ancaq ətirdə yaradır, ancaq çiçəkdə yaradır, yəni bir imtahan mühiti olduğu üçün məhdud yerlərdə yaradır Allah. Cənnətdə geniş sahələrdə yaradacaq. Ətir şüşəsində yaradılan bir qoxunun daha mükəmməli Cənnət küçələrində, Cənnət xiyabanlarında olacaq. Cənnət daim işıqlıdır, Cəhənnəm də daim qaranlıqdır. Cənnətdə heç yuxu gəlməz insana. Aclıq hissi gəlməz. Üşümə hissi gəlməz. İstilik hissi gəlməz. Yorğunluq hissi gəlməz. Heç bir halda yorulmaz, yuxu basmaz. (Adnan Oktarın Tempo TV-dəki canlı müsahibəsi, 20 yanvar, 2009)*

*Ən çox xoşlanılan şeylər peyğəmbərlərlə edilən söhbətlərdir. Cənnətdəki gəzintilərdir. Cənnətdə çox çay var. Kiçik çaylar… "Ağacları altından çaylar axar", - deyə bildirilir (Nisa surəsi, 57) ayədə. İnsanlar suyu çox sevdikləri üçün Cənnətdə hər yerdə belə çaylar var. Məsələn, axan çeşmələr var, insanların xoşuna gəldiyi üçündür bu, nemət bulaqları var. (Adnan Oktarın Tempo TV-dəki canlı müsahibəsi, 28 yanvar, 2009)*

**…"Bu gün sizin müjdəniz (ağacları) altından çaylar axan Cənnət bağlarıdır. Siz orada əbədi qalacaqsınız!" – (deyiləcək). Bu, böyük uğurdur. (Hədid surəsi, 12)**

**Belə dediklərinə görə də Allah onları (ağacları) altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları ilə mükafatlandırdı. Yaxşı iş görənlərin mükafatı budur. (Maidə surəsi, 85)**



# DİNLƏRİN TƏKAMÜLÜ YALANI

## Təktanrılı dinlərin təkamüllə çoxtanrılı dinlərdən əmələ gəlməsi yalandır

Təxminən bir əsr əvvəl, Çarlz Darvinin "Növlərin mənşəyi" adlı kitabı hələ ilk dəfə nəşr olunduğu dövrdə təkamül anlayışı materialist və ateist kütlələrin dəstəyini qazanmışdı. Dövrün bəzi mütəfəkkirləri insanın ətrafındakı hər şeyi təkamüllə açıqlayırdılar. Onların fikrincə, hər şey "ibtidai"dən başlayır, daha sonra aliyə doğru inkişaf edirdi.

Bu yanlış fikri bir çox sahəyə tətbiq etməyə çalışdılar. Məsələn, iqtisadiyyatda marksizm təkamül xarakterli inkişafın labüd olduğunu və nəticədə, bütün millətlərin kommunizmi qəbul edəcəyini iddia edirdi. Bunun ancaq təxəyyül məhsulu olduğu və marksizmin irəli sürdüyü iddiaların həqiqətləri əks etdirmədiyi zaman keçdikcə aparılan təcrübələrlə sübut edildi.



Eyni şəkildə, sosiologiya, antropologiya, tarix kimi elm sahələrinə də təkamül nəzəriyyəsi təsir etmiş, ancaq son əsrdə əldə edilən məlumatlar və elmi irəliləyişlər bu mənfi təsiri aşkar etmişdir.

Bütün bu təkamül nəzəriyyələrinin ortaq cəhəti isə Allah inancına qarşı olmaları idi. Dinlərin təkamülü yalanı da bu məqsədlə və bu fəlsəfi təməl üzərində irəli sürüldü. Bu yalanın qabaqcıl tərəfdarlarından Herbert Spenserin (Herbert Spencer) həqiqətdənkənar iddialarına görə, bəşəriyyətin ilk dövrlərində heç bir dini inanc yox idi. "İlk dinlər" isə ölülərə tapınmaqla başlamışdı. Dinlərin təkamülü yalanını müdafiə edən digər antropoloqlar isə daha fərqli hekayələr uydurdular. Bəzilərinə görə, dinin mənbəyi animizmə (təbiəti canlandırma, təbiətin ruhu olduğuna inanma) və bəzilərinə görə, totemizmə (insana, qrupa və ya əşyaya tapınma) əsaslanırdı. Başqa bir antropoloq E. B. Teylorun fikrincə, tarixdə sıra ilə animizm, manizm (ölmüş əcdadların ruhuna tapınma), politeizm (çoxtanrılılıq) və sonda monoteizm (təktanrılılıq) gəlirdi.

Halbuki XIX əsrin ateist antropoloqları tərəfindən masa arxasında yazılan ssenarilərlə irəli sürülən və daha sonra daima gündəmdə tutulan bu nəzəriyyə yalandan başqa bir şey deyildi. Arxeoloji və tarixi tapıntıların da göstərdiyi kimi, sözügedən şəxslərin iddialarının əksinə, tarixin ilk dövründən etibarən Allahın peyğəmbərləri vasitəsilə insanlara vəhy etdiyi haqq din mövcud olmuşdur. Ancaq hər dövrdə haqq dinlə birlikdə batil inanclar da olmuşdur. Dövrümüzdə də Allahın bir və tək olduğuna iman gətirən, Rəbbimizin nazil etdiyi dinə tabe olan insanlar olduğu kimi, daşdan, taxtadan düzəldilmiş bütlərə, bəzi ruhlara, şeytana,



müxtəlif heyvanlara, əcdadlarına, Günəşə, Aya, ulduzlara tapınan insanlar da var. Habelə, bu insanların əksəriyyəti müasir, inkişaf etmiş mühitdə yaşayan insanlardır.

Digər tərəfdən, tarix boyu Allahın göndərdiyi haqq dinlərin əmrlərini, hökmlərini və əxlaqi dəyərlərini pozmağa çalışan insanlar da olmuşdur. Quranda bəzi insanların batil inancları dinə daxil etməyə çalışdığı, beləcə, göndərilən haqq dini dəyişdirib təhrif etdiyi xəbər verilmişdir:

**Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitabı yazır, sonra da: "Bu, Allahın vəhyidir!"– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına! (Bəqərə surəsi, 79)**

Bu vəziyyət Allahın varlığına və birliyinə inanan və Rəbbimizin bildirdiyi hökmlərə tabe olan bəzi insanların zaman ərzində haqq dindən uzaqlaşmasına və batil inanclara yönəlməsinə səbəb olmuşdur. Beləliklə, bəzi batil inanclar üzə çıxmışdır. Başqa sözlə, bəzi insanların irəli sürdüyü kimi, "dinlərin təkamülü" kimi bir proses əsla baş verməmiş, ancaq haqq dinin müəyyən dövrlərdə insanlar tərəfindən təhrif edilməsi ilə batil dinlər meydana gəlmişdir.

## Haqq dinin təhrif edilməsi

XX əsrdə dinlərin mənşəyi haqqında ciddi araşdırmalar aparıldı. Beləcə, dinlərin təkamülü iddialarının heç bir elmi əsası olmayan, təxəyyülün məhsulu olan ssenarilər olduğu çox keçmədən üzə çıxdı. Endru Lenq (Andrew Lang), Vilhelm Şmidt (Wilhelm Schmidt) kimi antropoloqların rəhbərliyi ilə dünyadakı dinlərin tədqiq edilməsi nəticəsində dinlərin təkamül keçirmədiyi, əksinə, zaman ərzində təhrif edildiyi məlum oldu.

## Mesopotamiya və Misirdə əldə edilən arxeoloji tapıntılar

Mesopotamiya ovalığı tarixi mənbələrdə "sivilizasiyaların beşiyi" adlandırılır. Mesopotamiya ovalığının yaxınlığında isə antik Misir mədəniyyəti yerləşir.

Bu sivilizasiyalarla bağlı aparılan arxeoloji qazıntılarda diqqət çəkən xüsuslardan biri bu xalqların dini inanclarına dair əldə edilən tapıntılar idi. Əldə edilən yazılı qaynaqlarda saysız-hesabsız saxta ilahların gördüyü işlərdən bəhs edilirdi. Daha çox tapıntı əldə edildikcə və tədqiqatçılar bunları anlamaq üçün faydalı metodlar tapdıqca bu sivilizasiyaların inancları ilə bağlı təfərruatlar da üzə çıxmağa başladı. Diqqətçəkən cəhət bu idi ki, bu qövmlərin inandığı batil ilahların hamısından üstün tək bir İlah inancı var idi. Əldə edilən tarixi yazılar və tapıntılar tarix boyu haqq dinin mövcud olduğunu göstərirdi. Mesopotamiya, Misir, hind, Avropa sivilizasiyaları ilə yanaşı, astek, ink, mayyalar kimi Amerika sivilizasiyalarının da tək İlah inancına malik olduğu, onlara haqq dini təbliğ edən elçilər gəldiyini göstərən dəlillər əldə edilmişdir. Çoxtanrılı inancın içində bir Tanrı inancının gizli olduğunu tapan ilk tədqiqatçı Oksford Universitetindən Stefan Lenqdon (Stephan Langdon) idi. Lenqdon 1931-ci ildə əldə etdiyi tapıntıları elm dünyasına xəbər verərkən bu məlumatların gözlənilməz olduğunu deyirdi, çünki bu tapıntılar daha əvvəlki təkamül xarakterli açıqlamalara tamamilə zidd idi. Lenqdon tapıntılarla bağlı belə izah verir:

***Mənim fikrimcə, insanın ən qədim tarixi tək tanrı inancının pozularaq çoxtanrılığa və pis ruhlara inanca çevrildiyini göstərir.***

Lenqdon 5 il sonra "The Scotsman" jurnalında belə yazırdı:

***... Bütün dəlillər əvvəlcə tək Tanrı inancının olduğunu göstərir. Semitik mənşəli xalqların arxeoloji və ədəbi qalıqları da ən qədim zamanlarda belə tək Tanrı inancının olduğunu göstərir. Yəhudi dininin və digər semitik mənşəli dinlərin totemik, bütpərəst mənşədən əmələ gəldiyinin tamamilə əsassız olduğu bu gün artıq məlum olmuşdur.***

Birdən çox ilaha tapınma azğınlığı dinlərin təkamülü nəzəriyyəsinin iddia etdiyi



kimi, insanların təbiət güclərini təmsil edən bəzi mənfi ruhlara tapınmaları ilə meydana gəlməmişdi. Bir və tək olan İlahın müxtəlif isimləri insanlar tərəfindən zaman ərzində fərqli şərh edilmiş və tək İlah inancı təhrif edilmişdi. Tək İlahın müxtəlif isimləri zaman ərzində çox ilah inancına çevrilmişdi.

Buna bənzər pozulmanın izlərini antik Misirdə də görmək mümkündür. Tədqiqatçılar antik Misirin əvvəlcə təktanrılı inanc sisteminə malik olduğunu, daha sonra bu təktanrılı inancın bəzi insanlar tərəfindən təhrif edilərək Günəşə tapınan "sabiiliyə" çevrildiyini aşkar ediblər. Antropoloq M. De Ruj (M. de Rouge) bu barədə belə deyir:

Misir dini çox sayda tanrının tək Tanrıya çevrilməsi ilə meydana gəlməmişdi. Əksinə, Misir dininin tək Tanrı inancına yaxın olduğu zamanlar bu sivilizasiyanın ən qədim dövrlərinə uyğun gəlirdi. Misir dininin son mərhələləri isə bütün Misir dininin ən çox pozulmuş halı olmuşdur.

## Hindistanda batil çoxtanrılı inancın mənşəyi

Hind mədəniyyəti Yaxın şərq sivilizasiyaları qədər qədim olmasa da, dünyanın qədim sivilizasiyalarından biri hesab edilir.

Hindistanda saysız-hesabsız tanrılara tapınılan batil inanclar var. Bu batil dinləri araşdıran tədqiqatçılardan biri Endru Lenqdir. Lenq uzunmüddətli tədqiqatlar nəticəsində çoxtanrılı dinlərin Yaxın şərqdə meydana gəlməsinə oxşar prosesin Hindistanda da baş verdiyini üzə çıxarmışdır.

Edvard Makkreydi (Edward McCrady) də hindlilərin Veda adlı kitablarını tədqiq edərkən hind mədəniyyətinin erkən dövrlərində tanrıların bir üstün İlahın müxtəlif xüsusiyyətləri kimi şərh edildiyini yazır. Veda kitabındakı ilahilərdə də açıq şəkildə təktanrılı tövhid inancının pozulmasının izlərini görmək mümkündür. Mövzunu təhlil edən tədqiqatçılardan Maks Müller (Max Müller) əvvəlcə tək İlah inancının olduğunu qəbul edir:

Vedada tək Tanrı inancının çoxtanrılı inancdan daha əvvəl olduğunu görürük. Saysız-hesabsız tanrıya dualarında belə tək sonsuz Tanrının zikri göyü duman kimi örtmüş bütpərəst anlayışın arasından mavi səmanın görünməsi kimi üzə çıxır.



Buradan bir daha məlum olur ki, dinlərin təkamülü baş verməmişdir, əksinə, insanların haqq dinə bəzi batil inanclar əlavə etməsi və ya bəzi əmr və qadağalara etinasız yanaşması ilə dini inanclar zaman ərzində təhrif edilmişdir.

## Avropa tarixində dinlərin təhrif edilməsi

Tarixi Avropa xalqlarının inanclarında da bənzər pozulmanın izini görürük. Məsələn, qədim yunan batil inancları üzərində tədqiqat aparmış Aksel V. Persson (Axel W. Persson) "Tarixdən əvvəl yunan" adlı əsərində belə yazır:

***Əvvəl mövcud olan tək Tanrı inancı daha sonra yunan dini miflərində gördüyümüz saysız-hesabsız əhəmiyyətsiz tanrı şəxsiyyətlərə çevrilmişdir. Mənim fikrimcə, bu bir çox ilahın varlığı tək və bir olan Tanrını tərif edən müxtəlif isimlərin***

*zaman ərzində fərqli şərh olunmasına bağlıdır.*

Eyni pozulmanın izlərini İtaliyada da görmək mümkündür. Arxeoloq Rozenzveyq (Rosenzweig) qədim Etrusk dövrünə uyğun gələn "İkviun lövhələri" (İguine tablets) üzərində apardığı təhlillərdə: "İlahlar əvvəlcə isimlərin müxtəlif xüsusiyyətlər kimi şərh olunması nəticəsində meydana gəlir", -deyir.

Qısaca desək, təqribən bir əsr ərzində əldə edilən bütün antropoloji və arxeoloji tapıntılar tarix boyu xalqların əvvəlcə tək Tanrı inancına malik olduğunu, ancaq zaman ərzində bu inancın təhrif edildiyini göstərir. Əvvəlcə hər şeyi yoxdan yaradan, hər şeyi görən və bilən, bütün aləmlərin sahibi olan Allaha inanan xalqlar zaman keçdikcə Rəbbimizin isimlərini ayrı-ayrı ilahlar kimi düşünmüş və birdən çox batil ilaha tapınmağa başlamışlar. Haqq və gerçək din bir və tək ilah olan Allaha ibadət edilən dindir. Çoxtanrılı dinlər isə Rəbbimizin hz. Adəmdən etibarən insanlara vəhy etdiyi haqq dinin insanlar tərəfindən təhrif edilməsi nəticəsində meydana gəlmişlər.

## Allahın vəhy etdiyi haqq din

Yer üzündə fərqli ərazilərdə yaşayan və yaşamış xalqların dini dəyərlərinə və mədəniyyətlərinə nəzər saldıqda ortaq inanca malik olduqlarını görürük. Aralarında mədəni mübadilənin baş verməsinin qeyri-mümkün olduğu xalqların dinlərində mələk, cin və şeytan kimi insanla eyni məkan ölçüsündə yaşamayan varlıqlardan axirət inancına, insanın palçıqdan yaradılmasından edilən ibadətlərə qədər bir çox ortaq cəhət var. Məsələn, Nuh tufanı haqqında məlumatlar şumer qaynaqlarında, Çin yazılı mənbələrində, Qaller, Litva inanclarında və bir çox müxtəlif xalqların mədəni irsində mövcuddur.

Bu həqiqət din əxlaqını bir və tək olan uca İlahın, yəni aləmlərin Rəbbi olan Allahın vəhy etdiyini göstərən dəlillərdən biridir. Dünyanın hər tərəfindəki müxtəlif xalqlar eyni uca məqamdan gələn, bənzəri olmayan bir tək İlahın varlığını xəbər verən dinlərlə tərbiyə ediliblər. Rəbbimiz hər dövrdə üstün etdiyi bəzi seçilmiş qulları vasitəsilə Özünü insanlara tanıtmış və insanlar üçün seçdiyi dini bildirmişdir. Allahın son vəhyi olan Quranda **"hər qövmün bir doğru yolgöstərən rəhbəri olduğu (Rəd surəsi, 7)"** xəbər verilmişdir. Başqa ayələrdə isə Allahın hər xalqa xəbərdar edən göndərdiyi belə bildirilir:

**Biz heç bir məmləkəti onu xəbərdar edənlər olmadan məhv etmədik. (Xəbərdar edənləri də) öyüd-nəsihət vermək üçün (göndərdik). Biz əsla zalım deyilik! (Şüəra surəsi, 208-209)**

Bu mübarək elçilər xalqlarına bir və tək olan Allaha iman gətirməyə və qulluq etməyə dəvət etmiş, yaxşılığı əmr edib pislikdən çəkindirmişlər. İnsanlar Rəbbimizin qatında seçilmiş müqəddəs elçilərə və onların miras qoyduğu ilahi kitablara tabe olmaqla xilas ola bilərlər. Rəbbimizin aləmlərə rəhmət olaraq göndərdiyi son Peyğəmbər hz. Muhəmməd (s.ə.v) və Allahın əbədiyyən qoruduğu son ilahi kitab Qurani-kərim də bəşəriyyətin ən doğru yolgöstəricisidir.



# Müsəlman Allahın Bəyənmədiyi Danışıq Üslubundan İmtina Edər

- Müsəlmanlar hansı danışıq üslubundan çəkinərlər?
- Allahın bəyəndiyi danışıq üslubu hansıdır?

Nitq insanların fikir, düşüncə və hisslərini, istək və arzularını ifadə etmələrinə, bir-birləri arasında ünsiyyət qurmalarına kömək edir. Quran əxlaqından uzaq yaşayan insanlar isə ünsiyyət vasitəsindən bir-birlərini narahat etmək üçün istifadə edərlər. Bu cür insanlar bütün komplekslərini, şəxsiyyət pozuqluqlarını, psixoloji problemlərini, ruhi sarsıntılarını danışıqları əsnasında ortaya tökərlər. Halbuki, Allah möminlərin danışıqlarının hikmətli olmasını əmr etmişdir:

**Qullarıma de ki, ən gözəl sözləri danışsınlar. Çünki şeytan onların arasına ədavət sala bilər. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

### Fiziki qüsurları dilə gətirən danışıqlar:

İnsanların fiziki qüsurlarını dilə gətirmək bəzi insanların danışığında böyük yer tutur. Məsələn, uzun boylu bir insan



və ya başqa fiziki qüsuru olan insan görəndə o adamın fiziki xüsusiyyətlərinə lağ etmək, qarşı tərəfin qüsurlu xüsusiyyətinə eyham etmək üçün o şəxsin xüsusiyyətinin əksini təriflәyərək alçaltmağa çalışmaq bu danışıq üslubuna daxildir. Əslində, bu cür insanlar son dərəcə qafil olduqları üçün olduqları vəziyyəti təqdir edənin Allah olduğunu, diləsə onları da bu cür əskikliklərlə imtahan edə biləcəyini düşünə bilməzlər.

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları (lağa qoymasınlar). Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fəsadçı adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. (Hucurat surəsi, 11)**

## İstehzalı zarafatlarla və ya pis ləqəblər qoşaraq danışmaq:

Bu danışıq tərzində qarşı tərəfi hörmətdən salmaq, əzməyə çalışmaq, öz üstünlüyünü ortaya qoymaq üçün üslub, səs tonu və sözlər xüsusi olaraq seçilir. Qarşıdakı adamın qüsuruna eyham edərək "bu, əslində, çox yaraşıqlı, çox ağıllı, çox varlıdır" kimi istehzalı üslubdan istifadə edilir. Bununla bərabər, mühitdə səhv edən birinə lağ etmək, əyləncə mövzusu etmək üçün yaxşı niyyətli bir adamla xüsusilə eyham yolu ilə zarafat etmək, onun hər hərəkətinə, hər sözünə lağ edərək zarafata davam etmək, sevmədiyi, əzmək istədiyi bir şəxslə, xüsusilə, izdihamlı mühitlərdə hörmətdən salıcı şəkildə zarafat etmək bu danışıq üslubunun çirkin üsullarına aiddir. Halbuki, istehza, alçaltma, ləqəb qoşma kimi davranışlar Quranda şiddətlə qınanmış və qadağan edilmişdir:

## Acizlikləri dilə gətirən danışıqlar:

İnsanların sahib olduqları bəzi acizliklər din əxlaqından uzaq yaşayan insanların zarafat mənbəyidir. Ağıl və iradə ilə daim ortadan qaldırılması lazım olan və ağıllı insanın əsla mövzusunu etməyəcəyi, dilə gətirməyəcəyi acizliklər Quran əxlaqından uzaq yaşayan insanların danışıqlarında geniş yer tutur, hətta onları güldürür. Halbuki, möminlər insanın heç bir acizliyinin mövzusunu eşitmək belə istəməz, istəmədən eşitsə də bunları eşitməzlikdən gələr. Din əxlaqından uzaq yaşayan insanlar isə, bunun əksinə, acizlikləri ön plana çıxaran zarafatlar edər və bunlara gülərlər. Primitiv bir əyləncə anlayışını əks etdirən bu zarafatlara bəzən filmlərdə, TV proqramlarında da rast gəlmək mümkündür.

## Deyinmək və şikayətçi üslubla danışmaq:

Bəzi insanlar gün ərzində qarşılaşdıqları mövzular haqqındakı düşüncələrini "öz-özlərinə deyinərək" dilə gətirərlər. Bəzən narahat olduqları bir şey, bəzən naqislik olduğunu düşündükləri bir mövzu, bəzən gördükləri səhv rəftar, eşitdikləri bir söz bu insanların çox düşünmədən dərhal bu mövzulardakı narahatlıqlarını ifadə etmələrinə səbəb olar.

Əslində, insanın gördüyü səhvi dilə gətirməsi yanlış deyil. Amma bu danışığın səhv olmaması üçün mütləq (Allah rizası üçün) o səhvi düzəltmək lazımdır. Bir də əgər ortada səhv rəftar, söz ya da hadisə varsa, o zaman bunu mütləq mövzunu həll edə bilən insanlara çatdırmaq lazımdır. Eyni zamanda, səhvi ən gözəl, ən hikmətli, ən məqsədəuyğun sözlərlə qarşı tərəfə açıqlamaq lazımdır.

Deyinmə vərdişində sadaladığımız hədəflərin heç biri yoxdur. Məqsəd yalnız adamın ağlına gələnləri söyləyərək əsəbini aradan qaldırmasıdır. Bu da, deyinmənin nə qədər boş və səhv olduğunu dəqiq şəkildə ortaya qoyur.

Məsələn, "Bunu bura kim qoydu?", "Bura bax, neçə gündür buranı heç təmizləyən olmayıb!", "Nə qədər səs-küy salırlar!", "Nə qədər çox sual verirlər?", "Bax, yenə bunu səhv edib, neçə dəfə izah etmişəm!", "Yenə ətrafı səliqəyə salmayıb!" kimi deyinmə növləri bir çox insanın heç düşünmədən gün boyu təkrarladığı cümlələrdəndir. Halbuki, mömin deyinmə vərdişinin Allaha inanan, qədəri, dünya həyatının imtahan yeri olduğunu və axirəti bilən bir insanın əxlaqına uyğun olmadığını bilər. Deyinmək möminin nəcibliyinə, şüuruna və vicdanına yaraşmayan bir rəftardır. Müsəlman lazım olsa gördüyü hər çatışmazlığı tək başına düzəldər, amma yenə də bunlardan şikayət etməz.



## Dedi-qodu etmək:

İslam əxlaqının yaşanmadığı mühitlərdə geniş şəkildə nəzərə çarpan danışıq pozuqluğundan biri də dedi-qodudur. Bu cür mühitlərdə yaşayan bəzi insanlar vaxtları və imkanları olmasa da dedi-qodu etmək üçün mütləq fürsət taparlar. Bəzən qapı qarşısında qonşularla, bəzən saatlarla telefonda, bəzən də çay və qəhvə ziyarətlərində bu mənzərəni görmək mümkündür. Ancaq burada əhəmiyyətli olan məqam odur ki, bu cür insanlar dedi-qodudan dərin zövq alırlar. Çünki dedi-qodu əsnasında bəhsi keçən adam hörmətdən salınıb-alçaldılarkən, dedi-qodunu edənlər özlərini üstün göstərməyə çalışırlar. Bu səbəbdən, yığıncaqlarda danışa biləcəkləri bir çox faydalı və ya zövqlü mövzu varkən, onlar israrla mövzunu dedi-qoduya çevirərlər. Qonşularını, dostlarını, qohumlarını, yoldaşlarını, tele-ulduzlar və hətta yoldan keçən adamları belə dedi-qoduya daxil edərlər.

Allah Quranda insanlara qeybət etməyin Quran əxlaqına uyğun olmadığını belə bildirmişdir:

**Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

## Düşüncəsiz danışıqlar:

Bəzi insanların danışıqlarında düşüncəsizlik tez-tez özünü büruzə verir. İzah etdiyi mövzu və ya istifadə etdiyi üslub qarşı tərəfin maraq dairəsinə daxil olmadığı halda, bunun fərqinə varmayıb izah etməyə davam etmək, əvvəl bəhs etdiyi şeyləri unudub təkrarən izah etmək, hər kəsin bildiyi şeyləri orijinal mövzu izah edirmiş kimi izah etmək,

qarşısındakı adamın vaxtı olmadığı halda, onu sözə tutmaq bu cür insanlara xas düşüncəsizliyin ən diqqətə çarpan nümunələrindəndir. Bununla yanaşı, yersiz və pis zarafatlar etmək danışıqların daha da hikmətsiz hala gəlməsinə səbəb olur.

Çox vaxt qəsdən bir alçaltma və ya lağ etmə məqsədi olmadığı halda, şüursuzca danışılan söhbətlərdə insanları təhqir etmək adamlıq dini insanına məxsus davranışdır.

### Möminlərin danışıq üslubları hikmətli və nəcibdir

Müsəlmanların gözəl xüsusiyyətlərindən biri səmimiyyətləridir. Bir söz söyləyəcəkləri zaman bunu sözün ən gözəli ilə, birbaşa və açıq şəkildə dilə gətirərlər. Dolambac üsullardan, atmacalı danışıqlardan çəkinərlər. Din əxlaqına görə yaşamayan cəmiyyətlərdə "söz atma" kimi məşhur üslubdan, zarafatlarında qarşılarındakına mesaj vermək üçün istifadə etməzlər. Rəftar və hərəkətləri ilə ətrafdakı insanlara nəsə izah etməyə çalışmazlar. Söyləmək istədikləri bir şey olanda, onu səmimiyyətlə, yumşaq şəkildə, təhqir etməyəcək sözlərlə və ən aydın şəkildə qarşılarındakı insana açıqlayarlar. Məqsədləri qəzəblərini büruzə vermək, qarşı tərəfi hörmətdən salmaq, etdiyi səhvə görə o adama dərs verməyə çalışmaq, onun rəftarına eyni tərzdə cavab vermək deyil. Əksinə, məqsədləri Allah rizası üçün yalnız qarşı tərəfə fayda verməkdir. Bu niyyətləri rəftarlarına əks olunduğu üçün qarşılarındakı insanlar da onların səmimi sözlərini və ya tənqidlərini nəzərə alar və rəftarlarındakı çatışmazlıqları düzəltməyə çalışarlar. Quranda möminlərin gözəl əxlaqları belə xəbər verilmişdir:

**Onlar yalandan şahidlik etməz, boş və faydasız bir şeylə rastlaşdıqları zaman onlardan üz çevirib vüqarla keçərlər. (Furqan surəsi, 72)**

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz kökü (yerdə) möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. Pis söz isə yerdən qoparılmış və artıq kökü üstə dura bilməyən pis bir ağaca bənzəyir. (İbrahim surəsi, 24-26)**

### Möminlər üslublarında Allahın razılığını güdərlər

Möminlər gözəl əxlaqlarının tələbi olaraq danışıqlarında son dərəcə "ölçülü və hörmətli üslubdan istifadə edərlər". Qarşılarındakı adamın yaşı, mədəni və ağıl səviyyəsi, savadı, varlı və ya kasıb olması onların bu üslubunu dəyişdirməz. Çünki onlar Quran əxlaqını, Allahın razılığını qazanmaq üçün yaşayarlar. Qarşılarındakı insanları müstəqil bir varlıq kimi düşünüb, hər birinə müxtəlif cür yanaşsalar, Quran əxlaqını gərəyi kimi yaşaya bilməyəcəklərini bilərlər. Bu səbəblə, qarşılaşdıqları hər insanın Allahın dünya həyatında onlar üçün yaratdığı imtahanın bir hissəsi olduğunu bilərlər və İslam əxlaqını təmsil etmək şüuru ilə hərəkət edərlər. Hər birinin sözünə ən hörmətli, ən gözəl şəkildə cavab verməyə çalışarlar. Quranda möminlərin bu əxlaqı belə bir nümunə ilə vurğulanmışdır:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya (verilən salamı olduğu kimi) qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

Müsəlmanlar bir söz söyləmədən əvvəl mütləq vicdanları ilə məsləhətləşər, daim sözün ən gözəlini söyləməyə çalışarlar. Qarşı tərəfi narahat edəcək, ona vəsvəsə və ya çətinlik verəcək bir söz belə söyləməzlər. Əksinə, onlara rahatlıq verən, qəlblərini açan, sevindirən, şövqləndirən şəkildə danışmağı hədəfləyərlər. Qarşılarındakı insanları yaxşı olana təşviq etmək, imani baxımdan daha da güclənmələrini təmin etmək, onları Allaha daha da yaxınlaşdırmaq məqsədilə danışarlar.



# Həşəratlardakı mükəmməl aerodinamika



Bir həşərat uçarkən saniyədə təxminən bir neçə yüz dəfə qanad çırpır. Hətta saniyədə 600 dəfə qanad çırpan həşəratlar da var. Bir saniyədə bu qədər hərəkət, üstəlik, fövqəladə həssaslıq bu dizaynın texnoloji cəhətdən təqlidini qeyri-mümkün edir.

Kaliforniya Universitetinin biologiya professoru Maykl Dikinson və əməkdaşlarının meyvə milçəklərinin uçma texnikasını öyrənmək üçün düzəltdikləri robot meyvə milçəklərindən 100 dəfə böyük olmasına baxmayaraq, ondan min dəfə az sürətlə qanad çırpa bilir. Hər beş saniyədə bir qanadını hərəkət etdirən robot milçək bu hərəkəti etmək üçün 6 müxtəlif mühərrikdən yardım alır.



Elm adamları illərdir ki, həşəratların qanad çırpma xüsusiyyətlərini müəyyən etmək üçün müxtəlif təcrübələr aparırlar. Bunlardan biri də Kaliforniya Universitesinin bioloqu prof. Maykl Dikinsonun meyvə milçəkləri üzərində apardığı təcrübələrdir. Bu təcrübələr nəticəsində Dikinson milçək qanadlarının çox kompleks aerodinamik texnikadan faydalandığını müəyyən etmişdir. Bundan başqa, qanadlar hər çırpmada istiqamətini dəyişir: aşağı hərəkət edən qanadda üst hissə yuxarı baxarkən, yuxarı hərəkət edəndə qanad dönərək qanadın alt hissəsi yuxarı baxır. Bu kompleks uçuş texnikasını analiz etməyə çalışan elm adamları təyyarə qanadları üçün istifadə edilən klassik aerodinamikanın qeyri-kafi olduğunu bildirirlər.



Meyvə milçəkləri uçmaq üçün birdən çox aerodinamik xüsusiyyətdən faydalanırlar. Məsələn, qanadlar bir vuruş meydana gətirəndə arxasında girdablı, qarışıq hava dalğası buraxır. Qanad geri dönərkən bunu kilvater kimi dalğanın içindən keçirərək, bundan əvvəl itirdiyi enerjinin bir qismini yenidən bərpa edir. Saniyədə 200 dəfə qanad çırpan 2,5 millimetrlik meyvə milçəklərinin və digər həşəratların uçma əzələləri ən güclü əzələlər kimi xarakterizə edilir.



Bundan əlavə, qanadlarla bərabər iti gözlər, tarazlıq üçün istifadə edilən kiçik arxa qanadlar və s. kimi daha bir çox detal da həşəratların dizaynlarındakı mükəmməlliyi artırır.

Qeyd etmək lazımdır ki, həşəratlar milyonlarla ildir ki, bu aerodinamik qaydalardan faydalanaraq ucurlar. Hal-hazırda inkişaf etmiş texnologiyalardan istifadə edən elm adamları həşəratların uçma texnikalarını tam olaraq açıqlaya bilmirlər. Bu da yaradılışın açıq-aşkar dəlillərindən biridir. Allah hikmətlə baxanlar üçün kiçik bir həşəratda da ağlının və elminin bənzərsizliyini nümayiş etdirir. Bir ayədə Allah buna belə diqqət çəkir:

**Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar. (Bəqərə surəsi, 117)**

## Bir böcəkdən ilham almaq

Milçəklər müasir təyyarələrdən daha üstün uçuş sisteminə sahibdirlər. Belə ki, mühəndislər milçək kimi uça bilən miniatür təyyarələr düzəltməyi arzulayır. Məsələn, Marsa uçarkən planetə enə bilən və manevr qabiliyyətinə sahib olan robotların üzərinə böyük vəzifə düşür. Robotlara tətbiq ediləcək xüsusiyyət arasında birinci yeri kəpənəklər tutur. NASA və Georgia Tech təşkilatının elm adamları Marsın səthinə enə bilən və burada hərəkət edə bilən robotlar hazırlayırlar. Həşəratlardan ilham alaraq düzəldilən robotları "entomopter" adlandırırlar.

Hal-hazırda 15 santimetrdən kiçik qanadı olan təyyarə istehsal etmək mümkün deyil.



Çünki bundan daha kiçik qanadların qaldırma qüvvəsi olmur. Milçəklər isə daha kiçik qanadlarla mükəmməl uça bilirlər. Milçəklərlə təyyarələrin qanadlarının təmin etdiyi qaldırma qüvvəsi müqayisə edildikdə milçəklərin təyyarələrdən 10 qat daha üstün olduğu ortaya çıxmışdır. (Harun Yəhya, Biomimetika)

15 santimetrlik təyyarələrə mini kamera yerləşdirilərək 100 metr yüksəklikdən uçurulur və onlardan casusluq məqsədilə istifadə edilir. ABŞ-ın Kaliforniya ştatında qurulan Aerovironment şirkəti illərdir bu təyyarələri istehsal edir. Proyektin lideri Matt Keennon milçək kimi havada qalan, ani manevrlər edən, şaquli səthlərə qoyulan və uzaqdan idarə olunan bir robot-milçək istehsal etmək istəyir. Ancaq müasir texnologiya milçəkləri bu mənada təqlid edə bilmir. Milçəyin uçuşunun təqlid edilməyəcək dərəcədə kompleks olması, kiçik canlının etdiyi hərəkətləri insanın təqlid etməsi də Allahın izni ilə mümkündür. Allah Quranda milçəklərin yaradılış möcüzəsini bu şəkildə xəbər verir:

**Ey insanlar! Sizə bir məsəl çəkilir. Onu dinləyin. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz bir milçək belə yarada bilməzlər, hətta bunun üçün bir yerə yığışsalar belə. Əgər milçək onlardan bir şey götürüb aparsa, bunu ondan geri ala bilməzlər. (Bunu etmək) istəyən də aciz qalar, istənilən də! (Həcc surəsi, 73)**

# HƏR İNSAN VƏHYLƏ HƏRƏKƏT EDİR

**- İnsan vəhylə necə hərəkət edir?**
**- Peyğəmbərlərə gələn vəhy ilə insanlara gələn vəhy arasındakı fərq nədir?**
**- Hz. Mehdi (ə.s) vəhy alacaqmı?**

Allah hər insana gözəl davranmağı və danışmağı, sağlam fikirlə mühakimə yürütməyi, doğrunu və yanlışı bir-birindən ayırd etməyi ilham edir. Bu mənəvi xüsusiyyət vicdandır.

## Allahın hər insana vəhyi: vicdan

Vicdan bütün insanlarda ortaqdır. Yəni bir insanın vicdanına görə doğru olan şey eyni şərtlər daxilində başqa insanların vicdanlarına görə də doğrudur. Vicdanlar heç vaxt bir-birinə zidd olmaz. Bunun səbəbi vicdanın mənbəyidir. Vicdan Allahın ilhamıdır. İnsan vicdanını dinlədikdə Allahın vəhyi ilə hərəkət etmiş olur. Allah hər insana vicdanı vasitəsilə Öz rizasına uyğun ən doğru davranışları bildirir.

Vicdanın Allahın ilhamı olduğu Qurani-Kərimin "Şəms" surəsində belə bildirilir:

**And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini ilham edənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapmışdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Yuxarıdakı ayələrdə Allah nəfsə günahları (günah etməyi, üsyan etməyi, fasiq olmağı, yalan danışmağı, Allaha itaətsizlik etməyi, haqdan üz çevirməyi, nizam-intizamı pozmağı, əxlaqi degenerasiyanı) və eyni zamanda bu günahlardan çəkinməyi ilham etdiyini bildirir. İnsanı pisliklərdən çəkindirən və



ona doğru yolu göstərən məhz vicdanıdır.

Vicdanın ən mühüm xüsusiyyətlərindən biri isə insanın öz-özünə doğru yolu tapmasına kömək etməsidir. Heç kim göstərməsə də, vicdan insana doğru yolu göstərir. Ancaq insan vicdanını dinləməli və dediklərini tamamilə yerinə yetirməlidir. Buna görə, vicdanın səsini dinləmək din əxlaqının əsas ünsürüdür.

Hər insan şüur sahibi olduğu andan etibarən uca Allahın ona ilham etdiklərindən, yəni vicdanının söylədiklərindən məsuldur. Ətrafındakı hadisələri dərk etməyə başlayan, mühakimə qabiliyyəti qazanan hər insan artıq vicdanının səsini eşidər. Nəfsi ilə vicdanını ayırd edəcək qabiliyyətə və vicdanına tabe olacaq iradəyə sahib olar. Artıq bundan sonra qarşılaşdığı hadisələr zamanı seçdiyi yola görə məhşər günündə sorğu-sual olunacaq, vicdanına tabe olarsa, Allahın əbədi cənnətinə layiq görüləcək, nəfsinə tabe olarsa, "qapıları kilidlənmiş" əbədi cəhənnəm əzabı ilə qarşılaşacaq.

## Peyğəmbərlərə gələn vəhyə görə bütün insanlar məsuldur

Rəbbimizin qullarına sonsuz lütfü kimi göndərdiyi peyğəmbərlər tarix boyu bütün xalqları Allahın varlığından, birliyindən, sonsuz güc və qüdrət sahibi olduğundan, axirət günündən və Rəbbimizin qullarından xəbərdar ediblər. Allah bu həqiqəti Quranda belə bildirir:

**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan çəkinin!" – deyə elçi göndərmişdik. Onlardan kimisini Allah hidayət yoluna yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə dolaşıb görün ki, (haqqı) yalan hesab edənlərin axırı necə oldu! (Nəhl surəsi, 36)**

Allahın xüsusi seçdiyi və üstün xüsusiyyətlər bəxş etdiyi mübarək insanlar olan elçilər həmişə güclü imanları, gözəl əxlaqları, üstün xarakterləri və nümunəvi davranışları ilə ətrafın diqqətini çəkmiş, yaşadıqları qafil və azğın icmadan ayrılmışlar. Onları digər insanlardan fərqləndirən ən mühüm xüsusiyyətlərdən biri də Allahdan vəhy almalarıdır. Allah "Nisa" surəsində belə buyurur:

**Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına,**

**İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik. (Nisa surəsi, 163)**

Allahın peyğəmbərləri vasitəsilə insanlara çatdırdığı vəhyinə görə bütün insanlar böyük məsuliyyət daşıyır. Çünki Allah ayələri ilə insanlara doğru yolu göstərmiş, ibadət formalarını öyrətmiş, gözəl əxlaqı tərif etmiş və Öz dinini tam bildirmişdir. Rəbbimiz saleh əməllərin və ibadətlərin nələr olduğunu peyğəmbərlərə vəhy vasitəsilə bildirdiyini "Ənbiya" surəsində belə xəbər verir:

**Biz Öz əmrimizlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər. (Ənbiya surəsi, 73)**

## Hz. Mehdi (ə.s.) vəhy alar, ancaq xəbəri olmaz. Allah qəlbinə ilham edər

Axırzamanın mübarək şəxsi olan Hz. Mehdi (ə.s) də vəhy alar, ancaq aldığı vəyh peyğəmbərlərə gələn vəhydən fərqlidir. Çünki peyğəmbərlər vəhy aldıqlarına görə **"Şübhəsiz ki, mən sizin üçün etibar olunası bir elçiyəm! (Şüəra surəsi, 107)"** ayəsində diqqət çəkildiyi kimi, açıq şəkildə təbliğ ediblər. Hz. Mehdi (ə.s) isə açıq-aşkar vəhy almadığı və möcüzə göstərmədiyi üçün fərqlidir. Bu, əlbəttə, hz. Mehdinin (ə.s) mənəvi məqamı baxımından uca Allahın çox böyük lütfüdür.

Hz. Mehdinin (ə.s) vəhy aldığından xəbəri olmaz. Lakin Allah bu dəyərli şəxsin qəlbinə doğrunu yanlışdan ayırd etməyi ilham edər. Hz. Mehdi (ə.s) bu vəhylə hərəkət etdiyini bilər, ancaq bunu özü düşünürmüş kimi hiss edər.

Peyğəmbərimiz (s.ə.v) Hz. Mehdinin (ə.s) bu vəhylə səhv etməyəcəyini bildirir. Hz. Mehdi (ə.s) əhkamda (verdiyi hökmlərdə) məsumdur. Səhv etdikdə mütləq yenə doğruya yönələr. Çünki Allah hz. Mehdinin (ə.s) səhv etməsinə izn vermir. Bu baxımdan məsum imam xüsusiyyəti ancaq Hz. Mehdiyə (ə.s) xasdır. Çünki Peyğəmbərimiz (s.ə.v) Hz. Mehdinin (ə.s) doğulduğu andan etibarən bir mələyi olacağını, bu mələk vasitəsilə səhv etməsinə izn verilməyəcəyini bildirmiş və həmişə Allahın onu xüsusi qoruyacağına diqqət çəkmişdir.

*"(HZ. MEHDİ (Ə.S)) PEYĞƏMBƏRİMİZİN (S.Ə.V) YOLUNU GEDƏCƏK. GÖZÜNƏ GÖRÜNMƏDƏN ONA YARDIM EDƏN BİR MƏLƏK OLACAQ. BİTKİNİ CANLANDIRACAQ VƏ ZƏİFƏ KÖMƏK EDƏCƏK". (Şeyh Muhiddin Arabi, Fütuhatül Makiyye, Bölüm 366)*

**Cənab Adnan Oktar 24 yanvar, 2010-cu il tarixli Kanal 35, TV Kayseri, Kanal Avrupa kanallarında yayımlanan müsahibəsində hər insanın vəhylə hərəkət etdiyini, ancaq bundan xəbəri olmadığını belə açıqlamışdır:**

**ADNAN OKTAR:** *Hz. Mehdi (ə.s) vəhy alar, ancaq xəbəri olmaz. Yəni Allah qəlbinə ilham edər. İlham vəhydir. Qəlbinə ilham ediləcək, ancaq bundan xəbəri olmayacaq, inşaAllah. Lakin bunun vəhy*

*olduğunu bilməyəcək, özü düşündüyünü zənn edəcək. Lakin, təbii ki, bu düşüncə ona Allah tərəfindən veriləcək. Hz. Mehdinin (ə.s) əhkamda məsum olması da budur. Peyğəmbərimiz (s.ə.v) Hz. Mehdinin (ə.s) doğulduğu andan etibarən bir mələyinin olduğunu bildirir. Onun vəhy almaması, möcüzə göstərməməsi mənəvi məqamı baxımından müsbətdir, çünki möcüzə göstərsə, vəhy alsa, bu onun üçün imtahanın savabını azaldar. Çünki möcüzə ağılın ixtiyarını əldən alar. Əksinə, Hz. Mehdi çətinlik çəkəcək, təhqir olunacaq, həbs ediləcək, təzyiqlərə məruz qalacaq, insanlar və özünü müsəlman adlandıran bəzi şəxslər tərəfindən də təcrid ediləcək. Hətta mədinədəki, yəni İstanbuldakı mövhumatçı alimə qədər bir çox din adamının ona qarşı çıxıb düşmənçilik edəcəkləri hədisdə bildirilir. Bütün bunlara baxmayaraq, mübarizəsinə görə, Peyğəmbərimiz (s.ə.v): "Hz. Mehdi (ə.s) bəzi peyğəmbərlərdən daha üstündür",- deyir. Bu, möcüzə görmədiyinə görədir, çünki peyğəmbərlər möcüzə görür, Cəbrayılı (ə.s) öz gözləri ilə görüb eşidir, vəhy alırlar. Bu, möcüzədir. Ancaq Hz. Mehdi (ə.s) tamamilə möcüzə görmədən və vəhy almadan, sadəcə Allahın kainatdakı möcüzələrini görərək hərəkət edəcəkdir. Ona görə, məqamı daha üstündür. Hətta Peyğəmbərimiz (s.ə.v): "Hz. Əbubəkr (r.ə.) və Hz. Ömər (r.ə.) belə ondan üstün ola bilməzlər",- buyurur. Çünki bu iki səhabə çox mühüm şəxslərdir, ancaq Hz. Mehdi (ə.s) onlardan üstündür. Hədisin ardında Peyğəmbərimiz (s.ə.v) deyir: "Hətta bir çox peyğəmbərdən daha üstündür". Səbəbi budur. Yəni Allah ona lütf edib, inşaAllah. Eyni zamanda vəzifəsini asanlaşdırıb. Çünki peyğəmbərliyin açıq-aşkar elan edilməsi çox çətin mühit əmələ gətirir, bu baxımdan Allah onun üçün asanlıq yaradıb, Mehdi olduğu gizlədilib. Hz. Mehdi (ə.s.) Mehdi olduğunu iddia etməyəcək. Ona görə də gizlənmiş olacaq və bu, daha rahat fəaliyyət göstərməsini təmin edəcək. Peyğəmbərliyin də bu çətinliyi var, çox qarşı çıxanlar olur. Ancaq mehdilik gizli olmasına baxmayaraq, yenə də Hz. Mehdiyə (ə.s) insanlar təzyiq göstərəcəklər. İnsanların böyük əksəriyyəti Hz. Mehdiyə (ə.s) qarşı çıxacaq. Hətta müsəlmanların da bir çoxu ona qarşı olacaq. Bütün bunlara baxmayaraq, elmi fəaliyyətlərlə İslam əxlaqını dünyaya hakim edəcək. İlk dəfə bütün dünyada bu qədər böyük hakimiyyət qurulacaq. Hz. Adəmdən (ə.s) etibarən nə hz. Süleymanın (ə.s), nə də Hz. Zülqərneynin (ə.s) dövründə belə bir hadisə baş verməmişdir. İlk dəfə bu qədər böyük hakimiyyət qurulur, bu isə ilk və son olacaq. Ondan başqa hakimiyyət olmayacaq. Allah bir lütf olaraq Hz. İsanı (ə.s) ona vəzir kimi göndərir. Bu da çox böyük hadisədir. Hz. İsa (ə.s) ülul-əzm peyğəmbərdir. Həm xristian aləminin, həm də müsəlmanların qəbul etdiyi peyğəmbər olan Hz. İsa (ə.s) Hz. Mehdinin (ə.s) vəziri olacaq və onun vasitəsilə, inşaAllah, birlikdə İslamı bütün dünyaya hakim edəcəklər.*

# Axirətdəki Peşmançılıq

Dindən uzaq yaşayan insanlar axirətdə dünyada keçirdikləri hər anın peşmançılığını yaşayacaqlar. Çünki onlara dünyada dəfələrlə xəbərdarlıq edilmiş və doğru yol göstərilmişdir. Onlara verilən müddət ərzində düşünə biləcəkləri və doğrunu müəyyən edə biləcəkləri vaxtları çox olmuşdur. Ancaq bu anları həmişə gözardı etmiş, xəbərdar edildiklərində dinləməmiş və dünya həyatının sona çatmayacağı hissinə qapılaraq axirəti unutmuşlar. Bu cür insanlar cəhənnəmlə qarşılaşanda artıq geri dönə bilməyəcəklər.

İnsan təhlükə ilə üzləşdiyində vicdanı sürətlə hər şeyin hesabatını aparmağa başlayır. Dünyada keçirdiyi ömrünü və bu müddət ərzində gördüyü işləri bir-bir qiymətləndirir. Əgər bu insan dünyada yaxşı işlər görməyibsə, Allahın dininə riayət etməyibsə, o zaman içini böyük peşmançılıq bürüyür. Həyatı boyu heç vaxt düşünmədiyi həqiqətlər bir anda bütün açıqlığı ilə gözünün önünə gəlir. Bəlkə də həyatında ilk dəfə ölümün, həqiqətən, çox yaxın olduğunun fərqinə varır. Cənnətə layiq ömür sürmədiyini və keçirdiyi peşmançılıq hissinin də bundan qaynaqlandığını anlayır. Allaha qarşı etdiyi nankorluğu dərk edir və bu davranışının əvəzsiz qalmayacağını da vicdanı ilə hiss edir. O ana qədər heç vaxt keçirmədiyi qorxu hissi içini bürüyür. Bu vəziyyətdən onu yalnız Allahın qurtara biləcəyini anlayır.



Əgər xilas olsa, bundan sonra yaşadıqlarını qətiyyən unutmayacağına, Allaha çox şükür edəcəyinə və həyatının qalan hissəsini Allahın rizasına uyğun yaşayacağına dair söz verir. O, təhlükədən xilas olmaq üçün yalvara-yalvara Allaha dua edir. Yetər ki, xilas olsun və əlinə bir daha yaşamaq fürsəti düşsün...

## Nankorluğun fərqinə varmaq

Amma bir çox insan təhlükə sovuşduqdan sonra Allaha verdiyi sözə sadiq qalmır. Allah onu xilas etdikdən sonra əvvəlki ruh halına qayıdır. Peşmançılıq və təslimiyyət yerini bir anda nankorluğa verir. Ölümlə burun-buruna gəldiyində düşündüyü və fərqinə vardığı həqiqətləri bir anda unudur. Sanki Allaha dua edən və o peşmançılığı yaşayan o deyilmiş kimi Allahdan üz çevirir. Əvvəlki həyatına qaldığı yerdən, bəlkə də dünyaya daha da bağlanaraq davam edir.

İnsanlar hər hansı bir çətinliklə qarşılaşdıqları an Allaha yönəlirlər. Ancaq təhlükədən xilas olduqdan sonra bir anda Allaha verdikləri sözü unudaraq nankorluq edirlər. Buradan belə aydın olur ki, insanların yaşadıqları peşmançılıq təhlükə anındakı çarəsizliklərindən qaynaqlanır.

## Əsl peşmançılıq

İnanan insanlara xas olan peşmançılıq isə belə deyil. Əsl peşmançılıq bir





anda unudulmayan, insanı hərəkətə gətirən, hətta bəzən insanda əsaslı dəyişikliklər meydana gətirən hissdir. Səmimi peşmançılığı qəlbində hiss edən insan həyatının ona bağışlanan sonrakı hissəsini Allahın rizasına uyğun yaşayar və Allahdan bağışlanmasını ümid edər. Şərait dəyişsə və ona yeni fürsət verilsə, əsla əvvəlki davranışına geri dönməz. Çünki belə bir nankorluğun, Allahın ayələrində bildirildiyi kimi, yalnız öz əleyhinə olacağını bilir.

İnsanın bunları düşünməsi və doğru qərar verməsi üçün mütləq təhlükə ilə qarşılaşması vacib deyil. Hətta belə bir təhlükə ilə qarşı-qarşıya olmadığı üçün də aldanmamalıdır. Belə bir vəziyyətə heç düşməyəcəyini düşünən insan bəlkə çox yaxın bir zamanda buna bənzər bir hadisə ilə qarşılaşacaq və ya bəlkə də həyatının sonuna qədər belə bir hadisə ilə qarşılaşmayacaq. Amma qəti olan bir şey vardır ki, insan üçün təqdir edilən ölüm anı gəlib çatanda ölüm mələklərini yanında görəcək. Ölüm həqiqətini gördüyü anda, əgər Allahın rizasına uyğun yaşamamışsa, mütləq peşman olacaq.

İnsan məhz bu peşmançılıqla dünyada da, axirətdə də sonsuza qədər qarşılaşmamaq üçün Allaha yönəlməli, Ondan qorxub çəkinməli, Onun Quranda bildirdiyi əmrləri yerinə yetirməlidir. Ölüm çox yaxındır. Buna görə də, insan heç nəyi təxirə salmamalı, verdiyi səmimi qərarları səbir və iradə ilə tətbiq etməlidir. Allaha olan yaxınlıq və səmimiyyətinin ölçüsü isə çarəsizlik və təhlükə anında Allaha yönələn insanın yaxınlığı və səmimiyyəti qədər olmalıdır. Bu yaxınlıq və səmimiyyəti isə bütün həyatı boyu davam etdirməlidir.





# İNSAN MÖCÜZƏSİ: GÖZLƏRİN QORUNMASINDA KİRPİKLƏRİMİZİN ROLU

Gözlər orqanizmin xarici aləmə açılan pəncərəsidir. Bu pəncərələrin qorunması və baxımı xüsusi sistem nəticəsində təmin olunur. Göz qapaqları mükəmməl işləyən bu sistemin ən mühüm hissələrindən biridir. Kirpiklər də bu möhtəşəm müdafiə sisteminin bir hissəsi və insanın simasını gözəlləşdirən estetik möcüzədir.

Göz mürəkkəb quruluşa və xüsusi funksiyaya malik olmasına baxmayraq, bədənimizdə çox kiçik yer tutur. Eynilə qiymətli daşın ziynət qutusunda saxlanılması kimi, kəllə sümüyümüzün içində xarici amillərdən qorunacaq şəkildə saxlanılır.

Göz estetik şəkildə qorunur. Gözü qorumaq üçün göz ətrafında möhkəm, zirehli qabıq da ola bilərdi. Halbuki, göz ətrafı sümüyün quruluşu, göz qapaqları, qaşlar və kirpiklər çox estetik və simmetrik görüntü əmələ gətirirlər.

## Kirpiklərin müdafiə funksiyası

Göz qapağının kənarından çıxan kirpiklər gözə estetik gözəllik və ifadə verməklə bərabər onu tozdan və yad maddələrdən qoruyur. Kirpiklər qopduqda və ya kəsildikdə yenidən uzanırlar. Kirpik əvvəlki ölçüsünə çatdıqda uzanma dayanır. Bir kirpiyin uzanması 2-3 ay çəkir.

İnsanın kirpikləri eynilə pişiklərin bığları kimi toxunuşa çox həssasdırlar. Ona görə də toz və ya başqa zərərli maddə gözə daxil olduqda reflektiv şəkildə gözü qoruyurlar. Bu, Allahın yaratmasındakı gözəlliyin bənzərsiz nümunələrindən sadəcə biridir. Allah bir ayədə yaradılışdakı qüsursuzluğu belə xəbər verir:

**O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

## Kirpiklərimiz necə qıvrılır?

Kirpiklər düz və yumşaq olub, yuxarıya doğru bir az qıvrılırlar. Bu forma həm əlverişli, həm də çox estetikdir. Zeis vəzlərinin ifraz etdiyi yağlı maddə ilə kirpiklər yağlanır, qövsvari elastik forma alırlar. Əgər bu zərif qulluq edilməsəydi, kirpiklər çox bərk olar, hər göz qırpdıqda bir-birinə ilişərək narahatlıq verərdi.

Gözümüz üçün böyük əhəmiyyət daşıyan başqa bir ünsür olan göz yaşının da kirpiklərin qövsvari quruluşunda rolu var. Göz yaşı üç müxtəlif təbəqədən ibarətdir.

Ən yuxarıda yağlı lipid təbəqəsi, ortada lakrimal vəzlər tərəfindən ifraz edilən maye təbəqə və altda musin təbəqəsi yerləşir. Lipid təbəqəsi həm selikli qişanın üzərindəki təbəqənin nəmlənməsini, həm də kirpiklərin qövsvari forma almasını təmin edən təbəqədir. Lipid təbəqəsi kirpiklərin tük kisəciklərinə açılan zeis yağ vəzləri tərəfindən ifraz olunur.



## Kirpiklərinizdə kiçik canlıların yaşadığını bilirdinizmi?

Kirpiklərimizdə gözlə görünməyən demodisid adlı canlılar yaşayır. Bu canlıların ən əsas xüsusiyyətləri belədir:

Demodex folliculorum və ya demodisid adlanan 0.4 mm uzunluğundakı bu mikroskopik canlı məsamələrdə, saçlarda, burunda, çənədə və kirpiklərimizin köklərində yaşayan gənə növüdür.

Demodisidlərin törətdiyi infeksiyalar bu gənələrin bir neçəsinin eyni kirpik kökündə toplanması ilə əmələ gəlir.

Bu gənələr ölü dəri hüceyrələri və ya göz ifrazatı ilə qidalanırlar. Bir kirpik kisəciyində 25 demodisid yumurtası olur. Böyüdükdə kisədən çıxır və yumurtalarını qoymaq üçün yeni kisə tapırlar. Bu proses 14-18 gün davam edir. Demodisidlərin bədənləri tük kisəciklərinə yapışmağa imkan verən pulcuqlarla örtülüdür. Demodisidlər eyni kirpik kisəciyində toplanmasalar, zərərli deyillər.

Bəzi demodisid növləri göz yaşı ifrazını zədələyən göz xəstəliklərinə səbəb olurlar. Çünki bu gənələr göz yaşı ifraz edən zeis vəzlərini yeyirlər.

Bu gənələrin törətdiyi narahatlıq və yanma nəticəsində blepharitis xəstəliyi əmələ gəlir. Bu xəstəlikdə kirpiklər tökülə bilər.

## Gözün mütəşəkkil qorunması Rəbbimzin yaratma sənətinə heyranlığımızı artırır

Göz bütün orqanoidləri ilə birlikdə bir anda, tam yaradılmışdır. Kirpiklərimiz olsaydı, ancaq onların qıvrılmasını təmin edən zeis vəzləri olmasaydı, gözümüzü açıb-yummağımız çox çətinləşər və gözlərimiz sıradan çıxardı. Buna görə də bəlkə sadəcə estetik ünsür və bəzək kimi görünən kirpiklərimiz, əslində, gözümüz üçün çox böyük əhəmiyyətə malikdir.



Gözü təşkil edən hər orqanoidin qüsursuz yaradılışı Allahın üstün yaratma sənətinin nümunələrindən təkcə biridir. İnsan heç bir səy göstərmədən, doğulduğu anda etibarən hazır əldə etdiyi bu nemətlərə görə Allaha hər an şükür etməlidir. Rəbbimizin qullarına rəhməti ayələrdə belə bildirilir:

**Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**

**De: "Sizi yoxdan yaradan, sizə qulaq, göz və qəlb verən Odur. Nə az şükür edirsiniz!" (Mülk surəsi, 23)**

**Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, şükür edəsiniz! (Nəhl surəsi, 78)**

## Dəvələrin kirpiklərindəki maraqlı müdafiə sistemi

Dəvəni "xüsusi canlı" edən ən ağır şərtlərdən belə təsirlənməyən bədən quruluşudur. Dəvənin kirpikləri də çox xüsusi yaradılışa malikdir. Çox güclü qum fırtınaları belə dəvənin gözlərinə zərər vermir. Çünki kirpiklər bir-birinin içinə keçən quruluşdadır və hər hansı təhlükə zamanı avtomatik bağlanırlar. Beləcə, heyvanın gözünə kiçik toz zərrəciyi belə girə bilmir.

Şübhəsiz ki, bütün varlıqlar müxtəlif xüsusiyyətləri ilə birlikdə onları yaradan Allahın sonsuz gücünü və elmini göstərir. Qurandakı bir çox ayədə bu həqiqət xəbər verilir, Allahın yaratdığı hər şeyin bir ayə, yəni dəlil və ibrət olduğu bildirilir. Dəvənin yaradılışındakı təfərrüatlara Quranda **"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? (Ğaşiyə surəsi, 17)"** ayəsi ilə diqqət çəkilməsi buna misaldır.



# GİZLİ EQOİZMİ BƏSLƏYƏN DAVRANIŞLARDAN ÇƏKİNMƏYİN ƏHƏMİYYƏTİ

## İnsanı gündəlik həyatda gizli eqoizmə sürükləyən səbəblər hansılardır?

## Nəfs insanı gizli şəkildə necə eqoizmə sürükləyir?

Eqoizm nəfsdə olan və insanın həyatı boyu çox böyük diqqətlə çəkinməli olduğu pisliklərdən biri olub insanın özünün belə təxmin etmədiyi pis əxlaqa, həyat tərzinə və yanlış məntiqə sürükləyən çox təhlükəli hissdir. Ən əsas xüsusiyyəti eqoizm olan şeytan da insanı həyatının sonuna qədər bu yöndən aldatmağa çalışır. Ona görə, insan eqoizmə qarşı çox diqqətli olmalıdır.

Nəfs insanı bir çox yollarla açıq-aşkar eqoizmə sürükləyə bilər və həmçinin gizli şəkildə, hiyləgərcəsinə bu hissi insana yaşada bilər. Bəzən nəfs çox doğru, rəhmani və faydalı davranışlardan gizli şəkildə insanı eqoistliyə çəkmək üçün istifadə edir. İnsanlara yaxşı işlər görməyi xatırlatmaq, faydalı tövsiyələr vermək, tənqid etmək kimi davranışlar buna misaldır.

Bütün bunlar Quran əxlaqına uyğun davranışlardır. İman gətirən insanın ətrafındakılara fayda verən, onların daha rahat və daha yaxşı yaşamasına səbəb olan maddi-mənəvi məsələlərdə fikrini söyləməsi çox gözəl davranışdır. Ancaq bəzən eqoist insan bu cür davranışlarla eqoizm hissini daha da bəsləyir. Daima başqalarının səhvlərini axtarıb tapmaq, səhvlərini düzəltmək, onlara ağıl vermək, doğru yolu göstərmək bu cür insanın özünü üstün görməsinə səbəb ola bilər. Ona bütün bunları etdirənin, insanların xeyrinə vəsilə edənin ancaq Allah olduğunu unutduqda bu davranışları ilə özünü ətrafındakı hər kəsdən üstün görür. Hətta bunun üçün çox vaxt insanın ətrafındakıları bu cür tənqid etməsinə, onlara istiqamət verməsinə və səhvlərini düzəltməsinə ehtiyac da olmur. Bəzən adi gündəlik söhbətlərdə ifadə edilən fikirlər, tövsiyələr və ya sadə təlimatlar belə bu insanların eqoizm hissini bəsləyir.

Bu vəziyyətə düşən insanlar nə qədər böyük təhlükə ilə üzləşdiklərini dərk etmirlər. Çünki səhv etdiklərini düşünmürlər. İnsanlara istiqamət vermək, ətrafına sözünü keçirmək, istəklərini etdirmək daxilən insanın eqoistliyini getdikcə artırır. Nəfsin bu xüsusiyyəti ancaq insanın eqoizm hissinə zidd vəziyyət əmələ gəldikdə üzə çıxır.



## Nəfsin insanı gizli eqoizmə sürükləməsinin qarşısını almaq üçün çox diqqətli olmaq lazımdır

Eqoistliyə meyilli insan nəfsinin bu təhlükəsinə qarşı çox diqqətli olmalıdır. Bu cür insan nə qədər doğru olsa da, insanları idarə edən, onlara ağıl verən, tənqid edən deyil, idarə edilən, tabe olan, başqalarının verdiyi tövsiyələrə riayət edən mövqedə olmağı üstün tutmalıdır. Eqoizmini tamamilə əzdiyinə əmin olana qədər bu əxlaqın ona çox faydalı olduğunu unutmamalıdır. Xüsusilə də hər iki tərəf bənzər fikirlər irəli sürdükdə və ya haqlı olduqda bu cür insan öz haqqından keçib qarşı tərəfin fikirlərini və ya haqlı olduğunu qəbul etməlidir. Bütün bunlar bu insanın içindəki təvazökarlıq hissinin getdikcə güclənməsinə səbəb olar, özünü başqalarından üstün görmək istəyi və iddiası tədricən azalıb aradan qalxar və məzlum, ixlaslı, acizliyini dərk edən insana çevrilməsinə imkan yaradar.

Eqoizmə qapılma riski başqalarına nisbətən daha çox olan insanın bu cür tədbirlər görərək nəfsini tərbiyə etməsi ancaq Allah qorxusu, Allaha olan təslimiyyəti və itaətkarlığı ilə mümkün olar. Allahın bəyənmədiyi əxlaqa uyğun yaşamaqdan çəkinmə istəyi insanın nəfsini istədiyi kimi tərbiyə etməsinə səbəb olur.

## Eqoizm insanı Cəhənnəmə sürükləyir

İman gətirən insan anlayır ki, eqoizm təkcə gündəlik həyatdakı davranışlarına və ya insanlarla münasibətlərinə təsir etmir. Eqoizm şeytanı azdıran, onun (Allahı tənzih edirik) Allaha qarşı çıxmasına səbəb olan və əbədi Cəhənnəmə sürükləyən təhlükədir. Bu davranış şeytan kimi insanları da günaha, əxlaqının pozulmasına və Cəhənnəmə sürükləyən nəfsin pis xüsusiyyətidir. Uca Allah Quranda bu təhlükəni insanlara belə bildirmişdir:

**Ona: "Allahdan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

Ona görə, bu həqiqəti bilən mömin nəfsinə çətin gəlsə də, eqoizmdən çəkinmək üçün əlindən gəldiyi qədər bütün tədbirləri görər və bunları həyata keçirmək üçün heç bir sıxıntı çəkməz. Unutmaz ki, Allah Ona itaət edən, hər an Rəbbimizə nə qədər möhtac olduğunu dərk edərək yaşayan, gözəl sözə tabe olmağı özünə təhqir qəbul etməyən, lovğalanıb insanlar üzərində hökmranlıq etməyə çalışmayan, məzlum, təvazökar, gözəl əxlaqlı qullarını sevir. Allahın Quranda təkəbbürlü, lovğa insanları sevmədiyini bildirir. Allahdan qorxaraq həyatının sonuna qədər Allahın bəyəndiyi əxlaqa uyğun yaşamaq üçün səmimi iradə göstərər.

Allah Quranda bu məsələdə qullarının necə davranmasını istədiyini belə bildirmişdir:

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! (Loğman surəsi, 18)**



## Möminlər təvazökar davranışları ilə gizli eqoizmi olan insanlardan fərqlənirlər

Quranda xəbər verilən **"Bizim ayələrimizə ancaq ayələrimizlə öyüd-nəsihət olunduqları zaman səcdəyə qapananlar və təkəbbür göstərməyərək Rəbbini həmd-səna ilə təqdis edənlər iman gətirərlər. (Səcdə surəsi, 15)"** ayəsindən imanın ən mühüm şərti və açıq-aşkar göstəricilərindən birinin lovğalanmamaq olduğu məlum olur. Möminlər də "Səcdə" surəsindəki bu ayənin tələbinə uyğun olaraq və Allahın lovğalıq edənləri sevmədiyini (Nisa surəsi, 36) bildikləri üçün daima təvazökar olurlar:

**Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara söz dedikləri zaman salam deyərlər. (Furqan surəsi, 63)**

Din əxlaqı Allaha təslimiyyəti, təslimiyyət isə insanın acizliyini dərk etməsini tələb edir. Hər şeyin Allaha aid olduğunu və özlərinin Allah qarşısında qüsurlarını, acizliklərini bilən möminlər təbii olaraq Onun yaratdığı digər insanlara qarşı da təvazökar davranırlar.

Eqoist və təvazökar davranışlar insanlar arasındakı münasibətlərdə də üzə çıxır. Möminlər Allaha olan itaətlərini Onun mömin qullarına qarşı göstərdikləri təvazökarlıqla göstərirlər. Sahib olduqları xüsusiyyətlərin heç birinin özlərinə aid olmadığını anlayırlar. Buna görə, daima şükür edir və əllərindəki hər şeyi Allahın istədiyi an geri ala biləcəyini unutmurlar. Özlərini yaradan sonsuz qüdrət sahibinin əzabından qorxur və Allahın sığınılacaq tək güc olduğunu bilirlər. İnananların bu təslimiyyətli ruhi halı və Allah qorxusu bir ayədə belə xəbər verilmişdir:

**De: "Məni Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz və mən də Ondan başqa heç bir sığınacaq tapa bilmərəm! (Cin surəsi, 22)**

## Möminlərin təvazökar davranışlarından gözəl nümunələr:

- **Allah qarşısında acizliklərini bilirlər**
- **Allaha heç nəyi şərik qoşmurlar**
- **Allahın elçilərinə itaət edirlər**
- **Səhvlərində israr etmirlər**
- **Əldə etdiklərinə görə azğınlaşmırlar**
- **Dünyanı deyil, axirəti istəyirlər**
- **Heç kəsə istehza etmirlər**
- **Şeytanın yolu ilə getmirlər**
- **Təkəbbürlü insanlara boyun əymirlər**

Gizli eqoizmi olan insanlar daxilən özlərinin ən ağıllı, ən haqlı olduqlarına əmindirlər. Öz gözlərində özlərini (Allahı tənzih edirik) ilahlaşdırıblar. Bu təqdirdə, hər hansı qüsuru və ya səhv etməyi qürurlarına sığışdıra bilmirlər. Ona görə, ətrafdakılara səhvlərini göstərməməyə çalışırlar. Buna görə də eqoistliklərinin üzə çıxmasını istəmir və bu xüsusiyyətlərinin bilinməsindən utanırlar. Bu cür insanlar ancaq Allahdan qorxmaq, Ondan çəkinmək əvəzinə insanların rizasını itirməkdən qorxurlar.

Gizli eqoizmə malik insanlar klassik eqoistlərdən fərqli olaraq daha zirəkdirlər. Onlar, əslində, nəyin doğru, nəyin yanlış olduğunu bilirlər. Eqoist davranışın digər insanlara mənfi təsir edəcəyini, onları qəzəbləndirəcəyini bilirlər. İnsanların razılığını qazanmağı üstün tutduqlarına görə, onların rizasını itirməmək üçün eqoistliklərini gizlədirlər. Təvazökarlığın yaxşı xüsusiyyət olduğunu bildikləri üçün təvazökar görünməyə çalışırlar.

# Fosillər Təkamülü TƏKZİB EDİR



## DƏNİZ ZAMBAĞI

Yaş: 150 milyon illik
Dövr: Yura
Tapıldığı yer: Solnhofen meydanı, Almaniya

Qalıq tapıntılarının zənginliyi təkamülçülərin qarşısına çıxan böyük problemdir. Çünki bu qalıqlar canlılığın mənşəyini anlamaq istəməyən insanların qarşısına bütün təfərruatı ilə tamamlanmış bir tablo qoyurlar: canlı növləri təkamül keçirmədən, bir anda və fərqli strukturlarla, ayrı-ayrı ortaya çıxmışlar. Şəkildə görünən 150 milyon illik dəniz zambağı bu dəlillərdən biridir.

Fosil nədir?

Fosillər uzun zaman əvvəl yaşamış canlıların bu günə gəlib çatan qalıqları və ya izləridir. Minlərlə il yaşı olan fosillər olduğu kimi, miyonlarla, hətta yüz milyonlarla il əvvələ aid canlılara məxsus fosillər də var. Fosil orjinal canlı ilə tamamilə eyni quruluşa sahibdir, lakin tərkib hissəsi üzvi maddələr deyil, daşdır.

Bütün bu fosil nümunələri olduqca vacib həqiqəti ortaya qoyur. Bütün canlılar dünya üzərində yaradıldıqları ilk andan etibarən eyni quruluş, ölçü və xüsusiyyətlərə sahibdir.

Ən qədim geoloji dövrlərdə yaşamış canlılar belə ən kiçik dəyişikliklər keçirmədən bu günə qədər gəlib çıxıblar. Bu, elmi gerçəkdir və bütün məxluqatın Allah tərəfindən yaradıldığının elmi dəlilidir



## PALID YARPAĞI

Yaş: 50 milyon illik
Dövr: Eosen
Tapıldığı yer: Green river meydanı, Uinta County, Utah, ABŞ

Qalıqların da isbat etdiyi kimi, bütün bitki növləri xüsusi və orijinal olaraq yaradılmış növlərdir və bir-birləri arasında hər hansı bir təkamül əlaqəsi yoxdur. Təkamülçü paleontoloq E. C. Olsonun qəbul etdiyi kimi: "Bir çox yeni bitki qrupu birdən ortaya çıxır və onlara oxşar heç bir ataları yoxdur". (E. C. Olson, The Evolution of Life, 1965, s. 94) Bu həqiqətin dəlillərindən biri də şəkildə görünən 50 milyon yaşındakı palıd yarpağı qalığıdır. Palıd ağaclarının 50 milyon ildir eyni qaldığını göstərən bu tapıntı təkamülü əsassız edir.



## RAKUN KƏLLƏSİ

Yaş: 12-7 milyon illik
Dövr: Miosen
Tapıldığı yer: Çin

Şəkildəki rakun qalığı dişləri, kəllə və çənə quruluşu ilə dövrümüzün rakunlarından fərqlənmir. Bu bir daha göstərir ki, canlı növləri qalıq tapıntılarında ilk dəfə meydana çıxdığı şəkildə qalır və milyonlarla il keçsə də, dəyişmir, yəni təkamül keçirmir. Yaşayan qalıqlar canlıların təkamül keçirmədiklərini, yaradıldıqlarını göstərir. Hamısı uca Allah tərəfindən qüsursuz şəkildə var edilmişlər.

# Yarım kiloqram bal əldə etmək üçün 120.000 km yol qət edən ARILAR



**Bir kiloqram bal əldə etmək üçün 40.000 arı 6 milyon çiçəyi ziyarət etməlidir.**

**10 mikro vattan daha az enerji sərf edən bal arısının beyni müasir dövrün ən məhsuldar kompyuterindən 100 milyon dəfə üstündür.**

**Ana arının bir gündə yumurtladığı yumurtaların ağırlığı öz ağırlığından 20 dəfə çoxdur.**

**Bal arıları bir pətəyi doldurmaq üçün 100 milyon çiçəyin nektarını yığa bilir və 100 min kilometr uça bilir.**

**Bir arı ailəsi bir kiloqram bal istehsal etmək üçün dünyanın ətrafını 6 dəfə dönməyə bərabər uçmalıdır.**

**Arı özündən 330 dəfə ağır yük daşıya bilir.**

**Uçan arının hər kilometrdə bir enerji üçün yarım milliqram (qramın 2000-də biri) bala ehtiyacı var. Bir arı bir litr bal enerjisi hesabına 25 km sürətlə və saniyədə 200-250 dəfə qanad çalaraq 3.000.000 km məsafə qət edir.**



**Dünyanın ən sürətli kompyuterlərindən biri saniyədə 16 milyard aritmetik əməliyyat apara bilir. Bal arısı isə eyni vaxtda daha az enerji sərf edərək 10 trilyonluq əməliyyat yerinə yetirmək qabiliyyətinə malikdir.**

**Şübhəsiz ki, insanların arılarla əlaqədar kəşf etdikləri məlumatlar bununla məhdudlaşmır. Arılar daha mükəmməl sistemə, ağıllı davranışlara, hesablama, plan qurma, tikmək kimi qabiliyyətlərə sahibdir.**

Ağıllı və vicdanlı insan yuxarıdakı məlumatlardan bu nəticəni çıxara bilər: Allah bütün digər canlılar kimi, arıları da sahib olduqları üstün qabiliyyətlərlə birlikdə yaratmış və onları öz ehtiyaclarından çox bal istehsal etmək qabiliyyəti ilə təchiz edərək insanların xidmətinə vermişdir. Allah qullarına qarşı sonsuz şəfqət və mərhəmət sahibidir. O, göylərdə və yerdə olan hər şeyin, bütün canlıların tək hakimidir. Canlıların sahib olduqları bütün xüsusiyyətlər Allahın sonsuz elminin və qüdrətinin yer üzündəki təcəllilərindəndir.

**“Rəbbin bal arısına belə vəhy etdi: “Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik; sonra bütün meyvələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat get! (O arıların) qarınlarından insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxar. Şühəsiz ki, bunda düşünüb dərk edənlər üçün bir ibrət vardır!” (Nəhl surəsi 68-69)**